**Prezident İlham Əliyev çinli həmkarına başsağlığı verib**



Bax 3

**İngiltərəni bundan sonra nə gözləyir?**



Bax 14

**Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyi qeyd ediləcək**



Bax 3




“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 020 (5985) 2 fevral 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.




Bax 4

# Gənclik yeni nəfəs, yeni ruhdur



Bax 6

## Mahmud Abbas: Mən tarixə Qüdsü satan lider kimi düşməyəcəyəm

Mahmud Abbas tarixə Qüdsü satan lider kimi düşmək istəmir. AZƏRTAC xəbər verir ki, Ərəb Dövlətləri Liqası Xarici İşlər nazirlərinin Qahirədə keçirilən təcili iclasında Yaxın Şərq nizamlanmasına dair ABŞ tərəfindən hazırlanan planı kəskin tənqid edən Fələstin...

Bax 16

## Alman klubu transferlərə 98 milyon avro xərclədi

“Herta” qış transfer pəncərəsində Avropada ən çox pul xərcləyən klub olub. Bu barədə transfermarkt.de saytı yazır. Məlumatda deyilir ki, Berlin təmsililçisi transferlərə 98 milyon avro xərcləyib. Onlar “Milan”dan hücumçu Kşiştof Pyenteki 27 milyon, “Lion”dan Luka Tuzarı 25 milyon (mövsümün sununa qədər Fransada icarədə qalacaq), “Uotford”dan yarımmüdafiəçi Dodi Lukebakionu 20 milyon, “RB Leyptsiq”dən...





## Misirdə terrora görə 37 nəfər edam olunacaq

Bax 16

## Azərbaycan ən çox hansı islam ölkəsi ilə ticarət əməliyyatları aparır?

Keçən il Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr Türkiyə, İran və Qazaxıstan olub. AZƏRTAC Dövlət Gömrük Komitəsinin yaydığı məlumatlara əsasən xəbər verir ki, ölkəmizin Türkiyə ilə ticarət dövriyyəsi 4 milyard 509,4 milyon...

Bax 3



Bax 6

## Gənclik inkişafdır, yenilikdir, müasirlikdir

**Bu gün 2 Fevral Gənclər Günüdür. Gənclər hər bir cəmiyyətin ən fəal aparıcı qüvvəsi və potensial gücüdür. “Gənclik inamdır, ümiddir, enerjidir, gələcək perspektivlərə doğru atılan addımların başlanğıcı, uğurlu karyera inkişafının təməlidir” bu sözləri...**

**AŞPA-nın “siyasi məhbus” hoqqabazlığı**




Bax 15

**Daha bir müxalifətçi namizəd seçki prosesindən razı qaldığını dedi**



Bax 14

**Yanvarda Ermənistan ordusunda dörd ölüm hadisəsi qeydə alınıb**



Bax 6

# Prezidentin regionlara hər səfəri xalqa olan qayğıdan irəli gəlir

## Edilən hər bir səfər tərəqqiyə doğru atılan addımdır

**_Bu gün regionlarımızın günbəgün inkişaf etməsi ölkəmizdə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olduğunu təsdiq edən ən mühüm amildir. Eyni zamanda, onu da vurğulamaq lazımdır ki, regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramlarında, habelə, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə təkan verir._**




Ən mühüm məsələ isə, Prezident İlham Əliyevin, mütəmadi olaraq, bölgələrə səfər etməsi və səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir. Həmçinin, xüsusi olaraq, vurğulamaq lazımdır ki, son illər ərzində, ölkəmizin sosial-iqtisadi inkişaf istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi vədi yerinə yetirən və Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan ölkə başçısı İlham Əliyevin, müntəzəm olaraq, regionlara səfərləri zamanı insanlarla həmişə təmasda olması, sıravi adamlarla, ziyalılarla, gənclərlə görüşləri Ona öz işini səmərəli qurmaqda, nöqsanları aradan qaldırmaqda, qarşıya yeni vəzifələr qoyub, həyata keçirməkdə imkanlar yaradır və hakimiyyətlə xalqın birliyini möhkəmləndirir.

Məhz bunun nəticəsidir ki, son 16 ildə həyata keçirilən məqsədyönlü islahatlar, bir sıra ümummilli proqramlar, mühüm infrastruktur layihələrin uğurla reallaşdırılması ölkəmizin sosial-iqtisadi mənzərəsini xeyli dərəcədə dəyişmiş, tarazlı inkişaf və davamlı yüksəliş üçün möhkəm əsas yaratmışdır. Təkcə, onu demək kifayətdir ki, ötən illər ərzində, Azərbaycanda həyata keçirilən uğurlu neft strategiyası və iqtisadi islahatlar nəticəsində, iqtisadiyyatımız dəfələrlə artmış, ölkənin ümumi valyuta ehtiyatları çoxalmışdır.

### Son 16 il - uğurlu yolun uğurlu nəticələri

Bu günlərdə dünyanın mötəbər “beyin mərkəzi” sayılan Davos İqtisadi Forumunda Prezident İlham Əliyev “Strateji baxış: Avrasiya” mövzusunda keçirilən panel iclasında moderatorun “Paneldə regionu yaxşı tanımayanlar üçün. Baş qaldırmasından daha çox narahat olduğunuz gərginliklər hansılardır” sualına cavabında deyib: “Biz özümüz Ermənistan tərəfindən işğala məruz qalmışıq və bu, daimi təhdid mənbəyidir. Ərazilərimizin, demək olar ki, 20 faizi beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə zidd olaraq, Ermənistanın işğalı altındadır... Buna görə də, düşünürəm ki, regionda sabitliklə bağlı vəziyyət bizi narahat edən əsas məsələdir və belə deyə bilərəmsə, regionda qeyri-sabitlik əsas kabusdur.”

Belə bir şəraitdə, Dünya İqtisadi Forumu Azərbaycanın uğurlarının, eləcə də, problemlərini bütün dünyaya tanıdılmasında önəmli rol oynayır. Şübhəsiz, bütün bunlar ölkəmizi bu mötəbər tədbirdə uğurla təmsil edən Prezident İlham Əliyevin danılmaz xidmətləridir.

Dünya İqtisadi Forumu Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün gözəl bir platforma olmaqla yanaşı, dünyada baş verən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə imkan yaradır. “Doing Business 2009” və “Doing Business 2019” hesabatlarında Azərbaycan dünyanın lider islahatçı ölkəsi olaraq tanınıb.

2020-ci il üçün hesabatında Azərbaycanın rəqabət qabiliyyətliliyinə görə 35-ci, “Doing Business” hesabatında 25-ci yerdə qərarlaşması həyata keçirilən islahatların səmərəliliyinin bariz göstəricisidir.

Bir məqamı da, vurğulamaq lazımdır ki, dövlət başçısı İlham Əliyev ötən 16 il müddətində, sosial ədalət prinsipinin qorunması baxımından respublikanın hər bir bölgəsinin - potensial və imkanlar nəzərə alınmaqla - proporsional inkişafını vacib saymış, bu istiqamətdə sistemli və ardıcıl tədbirlər həyata keçirməyi hökumətin mühüm vəzifələrindən biri kimi müəyyənləşdirmişdir.

Beləliklə, görülmüş işlər haqqında danışanda, əlbəttə ki, biz son 16 il ərzində, yerinə yetirilmiş işlərə nəzər salmalıyıq. Bu işlər həm real həyatda, həm rəqəmlərdə, həm də dəyişən, abadlaşan şəhərlərdə özünü göstərir.

Dövlət başçısı çıxışlarında da bu uğurların daha yüksək nəticəyə aparacağını da bildirir: “Bu, bizə imkan verir ki, gələcəyə çox böyük ümidlərlə baxaq. Azərbaycan iqtisadiyyatı bu gün dayanıqlı iqtisadiyyatdır”.

### “Məqsədimiz odur ki, insanlara yaxşı maaş verilsin”

Bir sözlə, bu gün regionlarımızın günbəgün inkişaf etməsi, ölkəmizdə həyata keçirilən uğurla davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olduğunu təsdiq edən ən mühüm amildir. Eyni zamanda, onu da vurğulamaq lazımdır ki, regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramlarında, habelə, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə təkan verir. Eyni zamanda, ən əsas amil isə dövlət başçısının, mütəmadi olaraq, bölgələrə səfər etməsi və səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılan məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir. Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan ölkə başçısı İlham Əliyevin, müntəzəm olaraq, regionlara səfərləri zamanı insanlarla həmişə təmasda olması, sıravi adamlarla, ziyalılarla, gənclərlə görüşləri Ona öz işini səmərəli qurmaqda, nöqsanları aradan qaldırmaqda, qarşıya yeni vəzifələr qoyub həyata keçirməkdə imkanlar yaradır və hakimiyyətlə xalqın birliyini möhkəmləndirir.

### Hər bir addımda vətəndaşların mənafeyi amili

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi inkişaf konsepsiyasını hər bir azərbaycanlı öz həyatında hiss edir. Çünki dövlət başçısının müəyyənləşdirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prezident İlham Əliyevin Azərbaycanın şəhər və rayonlarına hər bir səfəri insanların qayğı və problemlərinə həssas münasibətin nümayişinə çevrilir. Bütün bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin, nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Ötən illər ərzində, ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi bütün vədləri yerinə yetirən dövlətimizin başçısı İlham Əliyev üçün hər bir addımda vətəndaşların mənafeyi əsas amillərdəndir. Təbii ki, bu amil əhalinin sosial rifah halının daha da yüksəlməsi ilə müşayiət olunur.

Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində, ölkə iqtisadiyyatı sürətli inkişaf dövrünə qədəm qoydu, Azərbaycanın dövlət büdcəsi artdı, açılan yeni iş yerlərinin sayı 1 milyon 300 mini keçdi, yoxsulluq 48 faizdən 5 faizə düşdü. Dünyada ən sürətli templərlə inkişaf edən Azərbaycanın iqtisadiyyatı 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə artdı. Ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyuldu. Heç bir başqa ölkədə son on il ərzində, iqtisadiyyat bu qədər artmayıb. Özü də bu inkişafa qlobal iqtisadi böhranın tüğyan etdiyi şəraitdə nail olunub. Ölkəmiz rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında öz yerini daha da möhkəmləndirdi.

Beləliklə, sadalanan rəqəmlər, bir daha onu göstərir ki, yürüdülən siyasət dövlət başçımızın düşünülmüş, məqsədyönlü siyasətidir və bu siyasət regionlarımızın yüksək inkişafını təmin edəcək. Prezident İlham Əliyevin yürütdüyü siyasət sayəsində bu gün Azərbaycanın regionlarında yol infrastrukturu yenilənib, su, qaz və elektrik enerjisi təminatı xeyli yaxşılaşdırılıb. Bütün bunlar, təbii ki, regionların inkişafına olan diqqətin birbaşa ifadəsidir.

**RƏFİQƏ KAMALQIZI**

# Prezident İlham Əliyev çinli həmkarına başsağlığı verib



***Azərbaycan Prezidenti İlham Əliyev Çin Prezidenti Si Cinpinə başsağlığı məktubu göndərib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Çində yeni növ koronavirusun baş qaldırması nəticəsində vəfat edənlərlə bağlı xəbərlərin onu olduqca kədərləndirdiyini bildirib.***

"Epidemiyanın yayılmaması və insan tələfatının qarşısının alınması istiqamətində Çin hökumətinin atdığı addımları, Çin xalqının nümayiş etdirdiyi əzmi yüksək qiymətləndirirəm. İnanıram ki, Sizin rəhbərliyiniz altında Çin Xalq Respublikası bu bəlanın öhdəsindən layiqincə gələcək. Əmin ola bilərsiniz ki, bu müvəqqəti çətin günlərdə də Azərbaycan xalqı dost Çin xalqı ilə həmrəydir və biz hər cür yardım göstərməyə hazırıq", - deyə Prezident İlham Əliyev qeyd edib. Dövlətimizin başçısı xəstəliyə düçar olaraq vəfat edənlərin ailələrinə şəxsən öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verib, virusa yoluxanların tezliklə sağalmasını arzulayıb.

## İzabel Anatol-Qabriel: "UNESKO-nun baş qərargahındakı sərgi Azərbaycanın xalça sənətini yaxından tanımağa imkan yaradır"



Azərbaycan xalçalarını, xüsusilə də Şəki xalça məktəbinin nümunələrini burada əyani surətdə görməkdən çox məmnun olduq. Çünki Azərbaycanın xalçaçılıq məktəbləri, xalçaları və xalça toxuculuğu haqqında çox eşitmişdik, ancaq yaxından görməmişdik. Azərbaycan xalçalarının UNESKO-nun baş qərargahında sərgilənməsi layihəsinin təşkilatçılarına təşəkkür edirik.

Bu sözləri Heydər Əliyev Fondu tərəfindən UNESKO-nun baş qərargahında təşkil edilmiş "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı sərginin ziyarətçilərindən biri, UNESKO-nun Dünya İrs Mərkəzinin Avropa və Şimali Amerika bölməsinin rəhbəri İzabel Anatol-Qabriel AZƏRTAC-a müsahibəsində deyib.

İzabel Anatol-Qabriel bildirib ki, Azərbaycanın xalça sənəti 2010-cu ildə UNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına, UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında isə "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" təşkilatın Ümumdünya İrs Siyahısına daxil edilib. Bu baxımdan UNESKO-nun baş qərargahında Şəki xalçalarının belə gözəl sərgisini təşkil etmək vacibdir. UNESKO üzvləri qurumun siyahılarına daxil edilmiş mədəni irs nümunələrini yaxından tanımalıdırlar. Buna görə də Şəki xalçaçılıq məktəbinin nümunələrini burada nümayiş etdirmək təşəbbüsünə görə Azərbaycana təşəkkür edirik.

## Yeni çağırış parlament Azərbaycanın daha da inkişafına mühüm töhfə verəcək



Əminəm ki, Azərbaycanda parlament seçkiləri demokratik prinsiplərə uyğun keçiriləcək və layiqli namizədlər parlamentdə təmsil olunacaqlar. Bunu Seçki-2020.az saytına açıqlamasında Ukrayna Azərbaycanlılarının Birləşmiş Diasporunun rəhbəri, hüquq elmləri doktoru Hikmət Cavadov deyib.

Yeni çağırış parlamentin Azərbaycanın inkişafına layiqli töhfə verəcəyinə əminliyini bildirən H.Cavadov deyib: "Parlament dövlət quruculuğunda mühüm rol oynayır. İnanıram ki, yeni tərkibli qanunverici orqan ölkədə aparılan islahatlara təkan verəcək. Ukrayna və Azərbaycan parlamentləri arasında yaxşı əlaqələr mövcuddur. Əminəm ki, gələcəkdə bu əlaqələr daha da genişlənəcək".

# Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyi qeyd ediləcək



***Prezident İlham Əliyev yanvarın 31-də Azərbaycan xalqının ədəbi-bədii və mədəni-ictimai fikir xəzinəsinə töhfələr bəxş etmiş qüdrətli söz ustası Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.***

AZƏRTAC xəbər verir ki, Sərəncamda Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla Mədəniyyət Nazirliyinə Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə böyük ədib Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

Sərəncamda qeyd edilir ki, 2020-ci ilin may ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük dramaturq, nasir, publisist və teatr təşkilatçısı, tanınmış ictimai xadim Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illiyi tamam olur. Əbdürrəhim bəy Haqverdiyev öz məşhur sələflərinin ədəbi ənənələrinin layiqli davamçısı və geniş erudisiyaya malik müasir dünyagörüşlü maarifpərvər ziyalı kimi çoxşaxəli fəaliyyət göstərmiş, Azərbaycan realist ədəbiyyatını və maarifçi-demokratik fikrini yeni mərhələyə qaldıraraq milli düşüncənin inkişafında əhəmiyyətli rol oynamışdır. Ustad sənətkarın dramaturji irsi ölkəmizdə teatr mədəniyyətinin yüksəlişinə yol açmışdır. Onun canlı həyat lövhələri ilə son dərəcə zəngin hekayələri nəsr tariximizin ən qiymətli nümunələri sırasında xüsusi yer tutur. Vətənpərvər ədib sevdiyi və təmənnasız xidmətində dayandığı xalqın arzu və istəklərini əsərlərində dolğun əks etdirmiş, maarifçiliyin alovlu təbliğatçısı olaraq daim mədəni oyanışa və tərəqqiyə səsləmişdir. Əbdürrəhim bəy Haqverdiyev Azərbaycanın ictimai həyatında fəal iştirak etmiş və sosial-mədəni quruculuq işlərində yorulmadan çalışmışdır. Əbdürrəhim bəy Haqverdiyevin adının UNESKO-nun 2020-2021-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edilməsi çoxəsrlik ədəbiyyatımızın parlaq siması olan ədibin mənəvi sərvətlərimizi və ali ümumbəşəri dəyərləri özündə təcəssüm etdirən humanist ruhlu yaradıcılığının lazımınca və yüksək qiymətləndirilməsinin aydın təzahürüdür.

## Anar Bağırov: Bu il ölkəmizdə vəkillərin sayı iki mini ötəcək



Bu il respublikamızda vəkillərin sayı 2 mini ötəcək. Sevindirici haldır ki, bu gün ölkəmizdə vəkilliyə çox böyük maraq var. Bunu Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri Anar Bağırov AZƏRTAC-a açıqlamasında deyib. A.Bağırov bildirib ki, hazırda ölkəmizdə 1700-dən çox vəkil var və bu artım davam edəcək. Çünki bunun üçün əlverişli şərait mövcuddur. Həm Bakıda, həm də regionlarda fəaliyyət göstərən çoxsaylı hüquqşünaslar Vəkillər Kollegiyasına üzvlüklə bağlı sənəd verirlər və vəkil olmaq arzusundadırlar.

Prezident İlham Əliyevin ölkəmizdə vəkilliyin inkişafına böyük diqqət və qayğı göstərdiyini vurğulayan A.Bağırov bildirib: "Prezident İlham Əliyevin ötən il dekabrın 25-də imzaladığı Sərəncamla hər il dekabrın 28-i Azərbaycanda Vəkil Günü peşə bayramı kimi elan olunub. Bu, vəkilliyə göstərilən böyük etimaddır. Vəkillərimiz çalışacaqlar ki, bu yüksək etimadı doğrultsunlar".

Respublikamızda vəkilliyin inkişafı istiqamətində mühüm yeniliklərin əldə olunduğunu diqqətə çatdıran Kollegiyanın sədri deyib: "Məlum olduğu kimi, keçən ilin sonunda kollegiyanın Hüquqi Yardım və Təlim Mərkəzi istifadəyə verildi. Müasir tələblərə cavab verən bu mərkəzdə vəkillər tədrisə cəlb olunacaq, pulsuz hüquqi yardıma ehtiyac duyan vətəndaşlarımıza yardım göstəriləcək. Belə ki, mərkəzdə pro-bono vəkil bürosu da fəaliyyətə başlayıb. Hüquqi yardıma ehtiyacı olan vətəndaşlarımız bu mərkəzə dəvət edilirlər və onlara pulsuz hüquqi yardım göstərilir".

## Müdafiə naziri Dalğıc Təlim Poliqonunun açılışında iştirak edib

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Hərbi Dəniz Qüvvələrinin (HDQ) şəxsi heyətinin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilir.***




Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti HDQ-nin hərbi hissələrindən birində yeni inşa edilən infrastruktur obyektlərinin açılışında iştirak edib. Müdafiə naziri hərbi hissənin ərazisindəki bina, qurğu və avadanlıqlara baxış keçirib.

Sonra Müdafiə naziri yenidən bərpa olunmuş müasir standartlara cavab verən Dalğıc Təlim Poliqonunda olub. Məruzə olunub ki, poliqon xüsusi təyinatlıların dalğıc hazırlığı üzrə normativləri və sualtı döyüşün aparılması vərdişlərini məşq etdirmələri üçün nəzərdə tutulub. İnfrastruktura baxış keçirən Müdafiə naziri ərazidə yenidən qurulan hovuz, gəmi və qayıq avadanlıqları kompleksi, barokamera otağı, dalğıc cihazlarına texniki qulluq emalatxanası, suyadalma üçün universal qüllə və müxtəlif məqsədli sinif otaqlarında yaradılmış şəraitlə də tanış olub.

Ərazidə yeni inşa edilən müxtəlif məqsədli çoxsaylı maneələrdən ibarət maneə zolağı hərbi qulluqçuların döyüş və fiziki hazırlığı, eləcə də peşə bacarıqlarının artırılması üçün nəzərdə tutulub. Xüsusi təyinatlıların nümunəvi çıxışlarını izləyən Müdafiə naziri tapşırıqların daha keyfiyyətli icra edilməsi ilə bağlı komandanlığa müvafiq göstərişlər verib.

## Azərbaycan ən çox hansı islam ölkəsi ilə ticarət əməliyyatları aparır?




Keçən il Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr Türkiyə, İran və Qazaxıstan olub. AZƏRTAC Dövlət Gömrük Komitəsinin yaydığı məlumatlara əsasən xəbər verir ki, ölkəmizin Türkiyə ilə ticarət dövriyyəsi 4 milyard 509,4 milyon ABŞ dolları, İranla 493,8 milyon dollar, Qazaxıstanla isə 229,6 milyon dollar təşkil edib. Hər üç ölkə ilə ticarət dövriyyəsi 2018-ci ilə nisbətən artıb. Artım Türkiyə ilə 1 milyard 106,6 milyon dollar, İranla 47,7 milyon dollar, Qazaxıstanla ilə 8,8 milyon dollar təşkil edib.



# Gənclik yeni nəfəs, yeni ruhdur

## Prezident İlham Əliyev: "Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, onu qorumaqdır"

***Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir" deyən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin amalında Azərbaycan gənclərində ölkənin uğurlu inkişafına istiqamətləndirə biləcək potensialın yaradılması dayanır. Son 16 ildə görülən işlərə baxsaq, yüksək intellektual bacarıqlara malik olan və ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərən gənclər ordusunun formalaşdığını görmüş olarıq. Hazırda gənclər dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman və digər sahələrdə uğurla çalışır, ölkəmizi şərəflə və yüksək səviyyədə təmsil edirlər. Bu gün Azərbaycan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə islahatlar dövrünü yaşayır və bu islahatların əsas istiqamətlərindən biri də ölkənin iqtisadi potensialının qeyri-neft sektoru əsasında, yeni kənd təsərüfatının, sənayenin və digər sahələrin möhkəmləndirilməsi dayanır.***

Bu baxımdan, gənclərimiz Cənab Prezidentin tövsiyəsi əsasında öz bilik və bacarıqlarını genişləndirərək, müasir dövrün tələblərinə uyğun olaraq, formalaşıb ölkəmizin inkişafına töhfə verməkdədirlər. Ötən il fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında Prezident İlham Əliyev gənclərə mühüm tövsiyə və tapşırıqlarını vermişdi. Xüsusilə, gənclərin vətənpərvərlik ruhunda yetişmələrinin zəruriliyini qeyd edərək, müasir dövrdə gənclərimizin əsas vəzifələrinin müstəqilliyimizi möhkəmləndirmək olduğunu vurğulayaraq, gənclərə öz inamını və dəstəyini bəyan etmişdi. Cənab Prezidentin gənclərlə səmimi, dost kimi dialoq formasında nitqini qurması böyük əhəmiyyətə malik hadisə oldu. Azərbaycan gənclərinin böyük imtiyazlara malik olduğunu qeyd edən Cənab Prezident, gənclərin qarşısında konkret vəzifələr qoyaraq, Azərbaycanın gələcək inkişafının gənclərin əlində olduğunu xüsusi vurğulamışdı. O, Azərbaycan sərhədlərini qoruyanların, vətənin müdafiəsində dayananların mütləq əksəriyyətinin gənclər olmasını vurğulayaraq, onların Azərbaycan cəmiyyətində iştirakının mühüm əhəmiyyətə malik olduqlarını qeyd etmişdi. Azərbaycanın dövlət müstəqilliyinin əbədi və əzəli olduğunu deyən Cənab Prezident bunu qorumaq və saxlamaq üçün gənclərin yaxşı təhsil almalarını, çox çalışmalı olduqlarını, peşələrinə yaxşı yiyələnmələrini və vətənpərvər olmağı gənclərə tövsiyə etmişdi.

### VERİLƏN QƏRARLAR GƏNCLƏRİN FƏALİYYƏTİNİ STİMULLAŞDIRDI

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə təsis edilmiş və hər il yüksək təntənə ilə qeyd edilən 2 Fevral Azərbaycan Gəncləri Günü əlamətdar hadisəyə çevrilib. Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət-gənclər siyasəti haqqında" Fərman və geniş Fəaliyyət Proqramının təsdiq edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısı idi. 1997-ci ildə fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərlə böyük qayğısının sübutu idi. Bütün bunlar gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaratmaqla yanaşı, dövlət orqanlarının diqqətinin gəncliyin problemlərinin həllinə yönəldilməsi baxımından da, olduqca əhəmiyyətli idi.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)" dövlət-gənclər siyasətinin həyata keçirilməsi yolunda mühüm fəaliyyət sənədi olmuşdur. Həmin Dövlət Proqramının icrası nəticəsində, dövlət-gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş vermiş və müəyyən uğurlar əldə olunmuşdur. Gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində davamlı iş aparılmış, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı genişləndirilmişdir. Məşğulluq sahəsində beynəlxalq təcrübəyə və gənclərin təşəbbüskarlığına əsaslanan fəaliyyətlər inkişaf etdirilmiş, regionlarda yaşayan gənclərin fəallığını stimullaşdıran tədbirlər həyata keçirilmişdir. Ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradılmış və bu sahədə irəliləyişlərə nail olunmuşdur. Dövlətin qayğısı sayəsində gənclər təşkilatlarının dövlət-gənclər siyasətində iştirakını təmin edən hüquqları genişləndirilmiş, onların layihə və proqramlarına mütəmadi dəstək verilmişdir. Beynəlxalq əməkdaşlıq sahəsində gənclər təşəbbüskarlıq və davamlı fəaliyyət nümayiş etdirmişlər.

Gəncliyin inkişafında növbəti mərhələnin təmin edilməsi məqsədilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsi gənclərin fəaliyyətin stimullaşdırılmasında növbəti mərhələ oldu.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı Azərbaycan dövlətinin gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri etdiyindən gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə dövlət başçısı 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair Sərəncam imzalayıb. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənəd Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə geniş imkanlar açıb. Cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaradılıb, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artıb.

### "BİZİM GƏNCLƏRİMİZ HƏRBİ QƏLƏBƏLƏRİMİZİ ŞƏRTLƏNDİRİBLƏR"

Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar. Qürurla haldır ki, xalqımızın qəhrəmanlıq tarixini yazanlar da onlardır. Hər zaman adlarını fəxrlə çəkdiyimiz Mübariz, Fərid, Murad, Samid, Ruhin, Elnur, aprel döyüşlərinin onlarla qəhrəmanı bu gün Azərbaycanımızda yüzlərlə, minlərlədir. Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir deyən ölkə Prezidenti İlham Əliyev bildirib ki, haqlı olaraq gənclərimizlə fəxr edə bilərik: "Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur... Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir".

Dövlətin gənclərə göstərdiyi diqqət və qayğı, həm də gənclərin üzərinə böyük məsuliyyət qoyur. Cənab İlham Əliyevin vurğuladığı kimi, "Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, onu qorumaqdır."

Müstəqil Azərbaycanın çiçəklənməsi, dövlət müstəqilliyimizin daha da möhkəmlənməsi istiqamətində gənclərimiz səylə çalışaraq, ölkə başçısı İlham Əliyevin ətrafında sıx birləşərək, ölkəmizi uğurlu gələcəyə aparan bu siyasətə dəstək verirlər.

***NƏZAKƏT ƏLƏDDİNQIZI***

***Amerika Prezidenti Donald Tramp Fələstin-İsrail münaqişəsinin həllini nəzərdə tutan və 80 səhifədən ibarət olan sənədi təqdim edib. O hesab edir ki, münaqişənin "dahiyanə" həllini tapıb və onu hər iki tərəf qəbul etməlidir. Yeni sülh planı artıq İsrail rəhbərliyi ilə razılaşdırılıb. Fələstin milli muxtariyyəti isə ondan imtina edib. Bir sıra ekspertlər bu vəziyyəti əvvəllər analoji situasiyada Yasir Ərəfatın atdığı addımla müqayisə edirlər. Həmin sırada Bill Klintonun da cəhdinin boşa çıxması üzərində dayanırlar. Bunların fonunda D.Tramp da şanslı görünmür. Lakin Vaşinqton nikbindir. Dövlət katibi Mayk Pompeo hesab edir ki, gec və ya tez fələstinlilər sənədə imza atacaqlar. Çünki Amerika "yaxşı təklif verib". Bütün bunların fonunda D.Trampın planının qlobal geosiyasi kontekstdə analizinə və proqnozlaşdırılmasına ehtiyac görürük.***




# Fələstin üçün Tramp planı:

# "Əsrin razılaşması"nın başlıca məqamları

## Vaşinqtonun təşəbbüsü: risklər və suallar çoxdur...

Amerika Prezidentinin gördüyü işləri pafoslu təqdim etməsinə dünya alışıb. D.Tramp hər dəfə özünün "Tvitter" səhifəsində bu və ya digər məsələ ilə bağlı çox təntənəli və şişirdilmiş formada nəsə yaza bilər. Lakin Fələstin-İsrail münaqişəsinin həlli ilə bağlı onun ifadə etdiklərinə bütün dünyada həqiqi mənada maraq oldu. Səbəbi aydındır: uzun illərdir Yaxın Şərqdə davam edən düşmənçiliyə son qoyula bilinər! Eyni zamanda, Fələstinin dövlət kimi tam formalaşması məsələsi öz həllini tapar.

Ancaq D.Trampın bu dəfə nə qədər pafoslu olmasının reallığa heç bir aidiyyəti yoxdur. Çünki söhbət dünyanın ən mürəkkəb münaqişələrindən birindən gedir. Neçə onilliklərdir bəşəriyyət yəhudi-ərəb düşmənçiliyinin müxtəlif aspektlərindən bəhs edir. Hətta bir çox jurnalistlər sadə insanlardan bu barədə informasiyalar almağa çalışırlar. Yəhudilər və ərəblər bir-birini qəbul etmək fikrində deyillər. Təbii ki, hamısı belə deyil, lakin ümumi miqyasda bu cür psixoloji uyumsuzluq mövcuddur. Problem həm də bu aspektdə önəmlidir. Siyasi olaraq məsələ həll edilsə, insanlar dil tapa bilərlər.

Buna baxmayaraq, ekspertlər hesab edirlər ki, son üç ildə Vaşinqtonun bu münaqişənin həllinə aktiv təsir etməyə çalışması vəziyyəti daha da ağırlaşdırıb. Xüsusilə, Qüdsün İsrailin paytaxtı elan edilməsi müsəlmanları qəzəbləndirib. Doğrudur, onlar bunun qarşısını almaq üçün konkret addımlar atmayıblar. Lakin yenə də xalq səviyyəsində Amerika Qüdsü "yəhudilərə təhvil verən qüvvə" kimi qəbul edilir.

Budur, indi də D.Tramp eyni ruh yüksəkliyi ilə bəyan edir ki, "fələstinliləri xoşbəxt gələcək gözləyir". O, 80 səhifəlik sənəd nümayiş etdirərək Fələstin dövlətinin yaradılması planını açıqlayır. Özü də bunu İsrailin Baş Naziri Binyamin Netanyahu ilə bir yerdə edir. Həm də onu da vurğulayır ki, "İsrailin təhlükəsizliyini sona qədər müdafiə edəcək". Konkret deyilsə, D.Tramp İsrailin yanında olduğunu gizlətmir. Ekspertlər bunda onun kürəkəni Cared Kuşnerin böyük xidmətlərinin olduğunu ifadə edirlər. Yeri gəlmişkən, münaqişəni həll planını üç il idi ki, "kürəkən" hazırlayırdı.

İndi ekspertlər sənəddə konkret olaraq nələrin vurğulandığını müzakirə edirlər. Orada Fələstin adlı dövlətin Şərqi Qüdsün paytaxt olması şərti ilə yaradılması nəzərdə tutulub. Əslində isə burada söhbət Qüdsə yaxın bir şəhərdən gedir və Qüds tamamilə İsraildə qalır. Bu şərti Fələstin tərəfi qətiyyən qəbul etmir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bunun qəbuledilməz olduğunu bildirib. O deyib ki, həmin plan faktiki olaraq İsrailin işğalçılıq siyasətini qanuniləşdirir. İşğal edilmiş torpaqlar hüquqi cəhətdən tanınır. Bu isə beynəlxalq hüquqa tam ziddir.

Yaradılmalı olan Fələstin dövlətinin ərazisinə İordan çayının qərb sahilləri və Qəzza bölgəsi daxil edilir. Bununla Fələstinin hazırkı ərazisi iki dəfə genişlənir.

Bunlarla yanaşı, İsrailin yeni tikdiyi məntəqələr dörd illiyinə dondurulur. Fələstin tərəfi də həmin müddətdə həmin ərazilərdə heç bir iş aparmır. Dörd il müddətində əldə ediləcək razılıqdan asılı olaraq, həmin ərazilərlə bağlı qərar qəbul edilir.

Fələstin dövlətinin iqtisadiyyatına və infrastrukturunun inkişafına mərhələli olaraq ABŞ 50 milyard dollar sərmayə qoymağa söz verir. Bunun fonunda 1 milyona yaxın iş yeri yaradılır. İordan çayı vadisində təhlükəsizlik məsələsini yaxın perspektivdə İsrail həll edir. Lakin Fələstin imkanlarını artırandan sonra bu prosesə qoşula bilər ki, bununla İsrailin fəaliyyəti bir qədər məhdudlaşar.

Maraqlıdır ki, 80 səhifəlik sənədə İsrailin baş naziri ilə yanaşı, ana müxalifətin lideri də razılıq verib. İsrail tərəfi bu təklifi mühüm adlandırıb və hesab edir ki, o, düşmənçiliyə son qoya bilər və məsələ tam həllini tapar. ABŞ-ın dövlət katibi M.Pompeo da hesab edir ki, gec-tez Fələstin tərəfi sənədi imzalayacaq. Əslində, bunun üçün onlara dörd il vaxt verilir. M.Pompeo şərtlərin fələstinlilərə çox uyğun olduğunu deyib. Buna görə də onlar tələsmədən, düşünüb sonra cavab verə bilərlər. Hər bir halda, M.Pompeoya görə, Vaşinqton hər iki tərəfin maraqlarını nəzərə alıb.

## İmtina: Fələstin qəbul etmir!

Fələstin muxtariyyətinin rəhbəri Mahmud Abbas isə tam əksini söyləyir. O deyib ki, "Fələstin satılmır". Ekspertlərə görə, bu, sənəddə M.Abbasın imzasının olmayacağı anlamına gəlir. İndidən fələstinlilər küçələrə axışıblar. Onlar D.Trampı lənətləyir, Amerika və İsrailin bayraqlarını yandırırlar. Belə təəssürat yaranır ki, fələstinlilər, ümumiyyətlə, İsrailin bir dövlət kimi mövcudluğunu arzulamırlar. Bu isə hazırda çox radikal bir mövqe kimi qəbul edilir.

Ərəb dövlətlərinin bu məsələyə münasibəti ayrıca maraq doğurur. Onu bütövlükdə Ərəb Liqası müzakirə etməyə hazırlaşır. Lakin ayrılıqda da bir sıra region ölkələri öz fikirlərini bildiriblər. Misir Xarici İşlər Nazirliyi bəyan edib ki, tərəflər sənədi diqqətlə öyrənəndən sonra münasibət bildirməlidirlər. Ekspertlərə görə, bu, faktiki olaraq, fələstinlilərə tələsməməyi məsləhət görmək deməkdir. Qahirə D.Trampın planını müdafiə edir. Qətər isə öz mənfi münasibətini bəyan edib. Doha münaqişənin təklif olunan çərçivədə həllini mümkünsüz sayır.

Ekspertlər bu kimi məqamları vurğulayaraq Amerikanın təklifinin geosiyasi aspektinə də diqqət yetirirlər. O cümlədən həmin addımın qlobal miqyasda ümumi mənzərəni necə dəyişə biləcəyinin proqnozları verilir. Öncədən deyək ki, bu aspekt də kifayət qədər mürəkkəb xarakterə malikdir. Çünki söhbət çox ciddi və geosiyasi proseslərə əhəmiyyətli təsiri ola biləcək bir münaqişənin həlli perspektivindən gedir. Bu vəzifənin öhdəsindən gələn dövlətin təbii ki, dünya miqyasında nüfuzu da çox arta bilər.

İndidən ekspertlər sənədin D.Trampın amerikan seçicilərində nüfuzunun artırılmasına xidmət etdiyini deyirlər. Bunu yəhudi lobbisinin D.Trampı dəstəkləyə biləcəyi ilə izah edirlər. Həm də D.Tramp əvvəlki prezidentlərin heç birinin bacarmadığı bir işin öhdəsindən gəlmiş olur. Müddətin dörd il qoyulması da bu baxımdan düşündürücü görünür.

Məsələ geosiyasi aspektdə digər bir cəhətdən də aktualdır. Əgər Amerikanın bu təklifi qəbul edilsə, süni olaraq müxtəlif regionlarda yaradılmış münaqişələrin də "dinc yolla" həllinə yeni təkan verilə bilər. Məsələn, ermənilər iddia edərlər ki, İsrail Holan yüksəkliklərinə sahib olursa, onlar da ən azından Kəlbəcər və ya Laçından imtina etməyəcəklər. Yəni Azərbaycan torpaqlarının işğalının da qanuniləşdirilməsinə cəhd üçün şans yarana bilər. Eyni məntiqlə Abxaziya, Cənubi Osetiya və ya Krım məsələləri ilə bağlı ziddiyyətli iddialar meydana gələ bilər. Və bütün bu gedişatın arxasında ABŞ-ın İsrail-Fələstin münaqişəsini həll etmək üçün irəli sürdüyü prinsiplər dayanır.

Digər tərəfdən, başqa böyük dövlətlər Amerikanın bu addımına birmənalı reaksiya vermirlər. Onlar hesab edirlər ki, bütövlükdə Yaxın Şərqdə ixtilaflar yaradan bir dövlət bu münaqişənin həllində də səmimi ola bilməz. Konkret olaraq, Vaşinqtonun İsrailin maraqları üçün fəal olduğu qənaəti vardır. Bu isə bumeranq effekti ilə başqa məsələlərdə də fərqli dövlətlərin fəallaşmasına əsas verə bilər. Ümumilikdə isə qlobal geosiyasətdə rəqabət daha da güclənər. Təbii ki, bu, dünya miqyasında təhlükəsizliyin təmini üçün yeni risklər meydana gətirir.

Regiondakı böyük dövlətlərə gəldikdə isə, onlar arasında da müəyyən ziddiyyətlərin meydana çıxması mümkündür. Təsadüfi deyildir ki, indidən bir neçə ölkə müsəlmanlar üçün sakral anlamı olan Qüdsün İsrailə verilməsini qətiyyən qəbuledilən saymırlar. Bu, bütövlükdə İslama qarşı atılan addım kimi qəbul edilir. Şübhə yoxdur ki, bu əsasda geniş siyasi və hətta hərbi ixtilaf meydana gələ bilər. O halda Yaxın Şərqin daha da qarışacağı və İsrail-Fələstin münaqişəsinin yenidən alovlanacağı şübhəsizdir.

Belə çıxır ki, D.Trampın Yaxın Şərqdə münaqişənin nizamlanması planına münasibət birmənalı deyil. Onun məzmunu və məqsədi hələ araşdırılmalıdır. Lakin bir şey aydındır: bu sənədin konkret reallaşmasından çox, kimlərinsə ondan geosiyasi dividend götürməsi bir sıra dairələr üçün daha əhəmiyyətlidir. Sonra nə olar, olar...

***Newtimes.az***



# Gənclik inkişafdır, yenilikdir, müasirlikdir

***Bu gün 2 Fevral Gənclər Günüdür. Gənclər hər bir cəmiyyətin ən fəal aparıcı qüvvəsi və potensial gücüdür. "Gənclik inamdır, ümiddir, enerjidir, gələcək perspektivlərə doğru atılan addımların başlanğıcı, uğurlu karyera inkişafının təməlidir" bu sözləri "Səs" qəzetinə açıqlamasında BSU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Əkrəm Mirzəzadə deyib.***

"Gənclik inkişafdır, yenilikdir, müasirlikdir" deyərək, məmnunluq hissi ilə bildirib ki, müstəqil Azərbaycan Respublikasında gəncliyə böyük diqqət və qayğı göstərilir: "Ölkəmizdə uğurla həyata keçirilən dövlət-gənclər siyasətinin əsası Azərbaycan xalqının Ümummilli Lideri, dünya miqyaslı Siyasi Xadim Heydər Əliyev tərəfindən qoyulub. Müasir Azərbaycanın Qurucusu, Ulu Öndər Heydər Əliyev öz çoxşaxəli idarəçilik və dövlətçilik fəaliyyətində həmişə gəncliyə xüsusi həssaslıqla, böyük diqqət və qayğı ilə yanaşıb, bilikli, savadlı, istedadlı gənclərin cəmiyyətdə öz layiqli yerlərini tutmaları üçün onlara əlverişli şərait yaradıb". Ə.Mirzəzadə xalqımızın yenilikçi, islahatçı, müasir və mütərəqqi düşüncəli dövlət başçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gənclər siyasətini müasir dövrün tələblərinə, yeni beynəlxalq çağırışlara uyğun olaraq, uğurla davam etdirdiyini diqqətə çatdırıb: "Ölkə Prezidenti İlham Əliyevin əqidədaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva gənclərin elmi-intellektual səviyyəsinin yüksəldilməsinə, onların sağlam və müasir düşüncəli, vətənpərvər ruhda tərbiyə olunmalarına böyük önəm verir. Müasir dövrdə ölkəmizdə dövlət-gənclər siyasəti sahəsində böyük işlər, genişmiqyaslı tədbirlər, çoxsaylı layihələr, dövlət proqramları həyata keçirilir. Gənclərin respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında fəal iştirak etmələri, siyasi idarəçilik sisteminə cəlb edilmələri, yüksək dövlət vəzifələrinə təyin olunmaları, mədəni dünyaya inteqrasiyası daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Son vaxtlar reallaşdırılan siyasi, struktur, kadr və sosial-iqtisadi islahatlar Azərbaycan gəncliyində böyük inam və ümid yaradıb".

Ə.Mirzəzadə hazırda təhsil aldığı Bakı Slavyan Universitetində dövlət-gənclər siyasətinin icrası üçün səmərəli və məqsədyönlü fəaliyyət həyata keçirildiyni bildirib: "Burada tələbə-gənclərin keyfiyyətli təhsil almaları, sosial fəallıqlarının gücləndirilməsi, universitetin və ölkəmizin ictimai-mədəni həyatında fəal iştirak etmələri, onların xalqımızın yüksək milli-mənəvi dəyərlərinə, Azərbaycan dövlətinə və dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunmalarına geniş imkanlar var. Gənclər üçün yaradılmış sağlam və işgüzar ab-hava, mənəvi-psixoloji mühit, şəffaf və obyektiv tədris, tələbə ictimai təşkilatlarının fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi tələbələrin yaxşı təhsil almalarına müsbət təsir göstərməklə yanaşı, onların fərdi təşəbbüskarlığını artırır, fəaliyyətlərinə ciddi stimul verir. Ehtiyacı olan, mövcud qanunvericilikdə güzəştlərin tətbiq edilməsi nəzərdə tutulan ailələrdən olan tələbələrin yataqxanada otaqla təmin edilmələri, maddi yardım göstərilməsi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı tərəfindən hər tədris ilində iki dəfə adlı təqaüdlərin verilməsi, eləcə də, fəal tələbələrin asudə vaxtlarının maraqlı və səmərəli təşkil olunması bunun əyani sübutudur. Tələbə-gənclərimiz müasir dövrümüzün trendlərindən sayılan könüllülük hərəkatında fəal iştirak edirlər. BSU-nun mindən çox tələbə-könüllüsü respublika səviyyəli tədbirlərdə, eləcə də, beynəlxalq tədbirlərdə universitetimizi yüksək təəssübkeşliklə, layiqincə təmsil edirlər. Dövlət başçımızın müvafiq Sərəncamı ilə "Könüllülər İli" elan edilmiş 2020-ci ildə də tələbələrimiz könüllük hərəkatına öz töhfələrini verəcəklər".

Əkrəm Mirzəzadə, sonda onu da vurğulayıb ki, BSU-nun tələbə-gəncləri bundan sonra da yüksək səviyyədə təhsil almaqla bərabər, xalqımıza, millətimizə, dövlətimizə ləyaqətlə, vicdanla, sədaqətlə xidmət edəcəklərini və onlara göstərilən etimadı əməli fəaliyyətləri ilə layiqincə doğrultmağa çalışacaqlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Alban Klod: Azərbaycan gənclərinin gələcəklə bağlı ideyalarını çox bəyəndim



Mənim üçün Azərbaycan gənclərini bir arada görmək çox xoşdur və bu görüşlər Azərbaycanda keçirdiyim görüşlərdən fərqlənir. Azərbaycan gənclərinin gələcəklə bağlı ideyalarını fikir mübadiləsi əsasında çox bəyəndim. Bu, mənim üçün ailəmin mənsub olduğu Azərbaycan mədəniyyətini kəşf etməyə imkan yaradır.

Bu fikirləri Hacı Zeynalabdin Tağıyevin ikinci oğlu Sadıxın nəticəsi, tarixçi Alban Klod Gənclər Günü münasibətilə azərbaycanlı gənclərin Vyanada keçirilən görüşü barədə AZƏRTAC-a müsahibəsində bildirib. O qeyd edib ki, bu kimi tədbirlərdə iştirak etmək onda emosional hisslər oyadır: "Çünki mənim ailəm bir əsr bundan əvvəl Vətəni Azərbaycanı tərk edərək Fransada məskunlaşmağa məcbur olub".

Hazırkı fəaliyyəti barədə danışan A.Klod bildirib ki, o, elmi tədqiqatlar mərkəzinin nümayəndəsidir və Azərbaycana son səyahətindən sonra tarixi Vətəni üçün nə edə biləcəyi ətrafında düşünməyə başlayıb: "Bu səyahət məndə hansı istiqamətdə fəaliyyət göstərməyim barədə ümumi fikir yaratdı". Bu məqsədlə də digər həmfikirləri ilə birlikdə "Caspian Research Center" adlı mərkəz təsis edən A.Klod Fransa və Azərbaycan arasında ümumi maraqlara xidmət edən mövzuların müəyyən edilərək araşdırmalar aparılacağını bildirib. Buraya gələcəkdə, həmçinin müxtəlif mövzularda, xüsusilə də Azərbaycan tarixi ilə bağlı konfransların təşkili də daxil olacaq.

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib



Fevralın 1-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə komissiyanın 2020-ci il yanvarın 23-də keçirilmiş iclasının protokolu təsdiq olunub.

Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səlahiyyətli nümayəndəsinin səlahiyyətinə xitam verilməsi ilə bağlı Müasir Müsavat Partiyasının müraciətinə baxılıb və sözügedən partiyanın müraciəti təmin olunaraq səlahiyyətli nümayəndənin qeydiyyatı ləğv olunub, ona verilən lövhəcik etibarsız hesab edilib.

Daha sonra qarşıdan gələn 9 fevral Milli Məclisə seçkilərdə seçkiqabağı təşviqat qaydalarının pozulması iddiası ilə MSK-ya daxil olmuş müraciətlərə baxılıb. Maraqlı subyektlərin də iştirakı ilə komissiya üzvləri tərəfindən aparılan geniş müzakirələr nəticəsində müraciətlər təmin edilib və seçkiqabağı təşviqatın aparılmasına dair qanunvericiliyin tələblərini pozan seçki subyektlərinə xəbərdarlıq olunub. Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda, həmçinin cari məsələlərə baxılıb.

# Mahmud Abbas: Mən tarixə Qüdsü satan lider kimi düşməyəcəyəm



Mahmud Abbas tarixə Qüdsü satan lider kimi düşmək istəmir. AZƏRTAC xəbər verir ki, Ərəb Dövlətləri Liqası Xarici İşlər nazirlərinin Qahirədə keçirilən təcili iclasında Yaxın Şərq nizamlanmasına dair ABŞ tərəfindən hazırlanan planı kəskin tənqid edən Fələstin lideri Mahmud Abbas deyib: "Donald Trampın "Əsrin sövdələşməsi" adlandırdığı sözdə sülh planını rədd edirəm. Tarixə Qüdsü satan və ya ondan vaz keçən biri kimi düşməyəcəyəm. Qüds mənim deyil, hamımızındır".

Bu plana görə, Qüds İsrail Dövlətinin bölünməz paytaxtı kimi nəzərdə tutulur. Fələstinlilər isə Şərqi Qüdsün bir neçə hissəsini onun ətrafı ilə birləşdirərək öz paytaxtlarını təşkil etmək imkanı qazanacaqlar. ABŞ Prezidenti sülh prosesinin şərti qismində Fələstin hakimiyyəti qarşısında Qəzza zolağının demilitarizasiyası, silahlı mübarizə metodlarından və HƏMAS hərəkatını dəstəkləməkdən imtina olunması tələbi qoyub. Prosesi irəlilətmək məqsədilə Vaşinqton 50 milyard dollar investisiya təklif edib.

Fələstinin bütün aparıcı hərəkatları bu təşəbbüsə qarşı çıxıblar. "Əsrin sövdələşməsi" tam və qəti şəkildə rədd olunub, amma biz hələ də sülhə inanırıq, - deyən Mahmud Abbas bildirib ki, Fələstin ABŞ və İsraillə bütün münasibətləri dayandırır.

# Yanvarda Ermənistan ordusunda dörd ölüm hadisəsi qeydə alınıb



***Bu ilin yanvarında Ermənistan ordusunda dörd ölüm hadisəsi qeydə alınıb. Onlardan ikisi intihar edib, biri səhhətindəki problemlərlə əlaqədar, biri isə qəza nəticəsində ölüb. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, ay ərzində səkkiz hərbçi xəsarət alıb. Xəsarət hallarının üçü avtomobil qəzası, ikisi cinayətə cəhd, biri intihara cəhd, qalanları isə digər hadisələr zamanı qeydə alınıb.***

Ölüm hadisələrindən ikisi, xəsarət hallarından isə üçü döyüş şəraitində olmayan odlu silahın tətbiqi nəticəsində baş verib. Helsinki Vətəndaş Assambleyası Yerevan Ofisinin Vanadzor bölməsi hadisələrdən narahatlığını ifadə edərək bildirib ki, silahlı qüvvələrdəki hərbçilər üçün geyim və yeməyin keyfiyyəti, döyüş vəzifəsində həyat dəstəyi və təhlükəsizlik şəraitinin yaxşılaşdırılması üçün vacib tədbirlərlə yanaşı, silahlı qüvvələrdə hərbi nizam-intizama səmərəli nəzarətin təmin edilməsi, qanuni münasibətləri qorumaq, zabitlərin, sıravi və müqaviləli hərbçilərin mənəvi və psixoloji vəziyyətlərini yaxşılaşdırmaq üçün təhsil nailiyyətlərini təşviq etmək lazımdır. Ofisin Vanadzor bölməsinin illərdir bu problemləri gündəmə gətirməsinə baxmayaraq, Ermənistan Müdafiə Nazirliyi bu istiqamətdə real addım atmaq istəmir. Buna görə də hərbçilər üçün təhlükəsiz və ləyaqətli xidmətlərin təmin edilməməsinə görə birbaşa məsuliyyəti Ermənistan hakimiyyəti daşıyır.

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*



## Siyavuş Novruzovun seçiciləri onu birmənalı şəkildə dəstəkləyirlər



***5** saylı Şahbuz-Babək Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Novruzov seçicilərlə görüşlərini uğurla davam etdirir.*

Növbəti görüşlər Babək rayonunun Sirab, Qahab və Naxışnərgiz kəndlərində olub. Görüşlərdə çıxış edən Yeni Azərbaycan Partiyasının Babək rayon təşkilatının sədri İsa Məmmədov, Siyavuş Novruzovun ötən müddət ərzində, seçicilərini parlamentdə layiqincə təmsil etdiyini, ona göstərilən etimadı doğrultduğunu bildirib. İ.Məmmədov ümumxalq partiyası olan YAP-ın parlament seçkilərinə qətiyyətli qələbə əzmi ilə getdiyini vurğulayıb. O, gücünü xalqın dəstəyindən alan Yeni Azərbaycan Partiyasının növbəti möhtəşəm nailiyyət əldə edəcəyinə əminliyini ifadə edərək, seçiciləri fevralın 9-da keçiriləcək parlament seçkilərində aktiv iştirak etməyə və YAP-ın namizədinə səs verməyə çağırıb.



Görüşdə çıxış edən deputatlığa namizəd Siyavuş Novruzov Azərbaycanın, o cümlədən, Naxçıvan Muxtar Respublikasının dinamik inkişafından, həyata keçirilən sosial layihələrin uğurlu nəticələrindən, vətəndaşların dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmalarından və digər məsələlərdən geniş söhbət açıb. Azərbaycanda Prezident, YAP-ın Sədri İlham Əliyevin rəhbərliyi ilə milli inkişafa xidmət edən çoxşaxəli islahatların həyata keçirildiyini deyən Siyavuş Novruzov "Azərbaycanın inkişafı dinamik xarakter daşıyır, əhalinin rifahı daim yaxşılaşır, ölkəmizin qüdrəti daha da artır" deyib. Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının inkişafına daim böyük diqqət göstərdiyini deyən deputatlığa namizəd "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərliyi ilə genişmiqyaslı abadlıq-quruculuq işlərinin aparılması, əhalinin rifahının daha da yaxşılaşmasına xidmət edən sosial-iqtisadi tədbirlərin, ardıcıl olaraq, həyata keçirilməsi sakinlər tərəfindən böyük məmnunluqla qarşılanır. Muxtar respublikanın, o cümlədən, Babək rayonunun sakinlərinin layiqli həyat şəraitinin təmin olunması həyata keçirilən siyasətin səmərəliliyini göstərir".

YAP-ın Seçki Proqramından və daha güclü Azərbaycan naminə 10 addım paketindən bəhs edən S.Novruzov seçiciləri fevralın 9-da parlament seçkilərində fəal iştirak etməyə və Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

Görüşlər zamanı seçicilərin təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb. Seçicilər ümumxalq partiyası olan YAP-ın namizədinə səs verəcəklərini qətiyyətlə ifadə ediblər.

***Rövşən RƏSULOV***

## "Daha güclü Azərbaycan naminə" seçiciləri deputatlığa namizəd Kamilə Əliyevaya səs verəcəklər







***F**evralın 9-da ölkəmizdə keçiriləcək parlament seçkilərində 111 saylı Zaqatala-Balakən Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Kamilə Əliyevanın təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşləri uğurla davam edir. Kamilə Əliyevanın Zaqatala seçiciləri ilə növbəti görüşü keçirilib.*

Görüşdə çıxış edən deputatlığa namizəd Kamilə Əliyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasəti, aparılan dərin məzmunlu islahatlar haqqında ətraflı məlumat verib. Kamilə Əliyeva bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz sosial-iqtisadi inkişaf parametrlərinə görə, dünyada analoqu olmayan uğurlara imza atıb. Dövlət başçısının siyasi iradəsi əsasında Azərbaycanda bütün sahələrdə sistemli, kompleks xarakterli, fundamental islahatlar həyata keçirilir. Namizəd qeyd edib ki, dövlət başçısının yeni çağırışlara və ölkənin reallıqlarına uyğun qəbul etdiyi mühüm qərarlar, imzaladığı müvafiq fərman və sərəncamlara əsasən, müxtəlif sahələrdə aparılan islahatlar böyük aktuallıq daşıyır: "Həyatımızın bütün sferalarında həyata keçirilən islahatlar cəmiyyət tərəfindən rəğbətlə qarşılanır. Bu islahatlar ölkəmizin inkişafına böyük təkan verməklə yanaşı, insanların sosial rifahının daha da yüksəlməsinə xidmət edir".

Kamilə Əliyeva əldə etdiyimiz nailiyyətlərin davamlı olması üçün, "Daha güclü Azərbaycan naminə" seçiciləri 9 fevral parlament seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Yüksək bayram əhvali-ruhiyyə ilə keçən görüşdə çıxış edən seçicilər Prezident İlham Əliyevin inkişaf siyasətini dəstəklədiklərini və 9 fevral seçkilərində də YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

***ZÜMRÜD BAYRAMOVA***

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*



## Deputatlığa namizəd Hikmət Babaoğlu 5 saylı Şəhər Klinik Xəstəxanasında müalicə olunan uşaqları ziyarət edib




***Yeni Azərbaycan Partiyasının 19 saylı Nərimanov birinci Seçki Dairəsindən deputatlığa namizədi Hikmət Babaoğlu Nərimanov rayonu ərazisində yerləşən 5 saylı Şəhər Klinik Xəstəxanasının Yanıq şöbəsinin uşaq bölməsinə ağır yanıq diaqnozu ilə yerləşdirilən, hərbçi ailəsinin 11 yaşlı övladı Ümid Məftun oğlu Əhmədovu və xəstəxananın reanimasiya şöbəsində müalicə olunan 5 yaşlı Elmira Elçin qızı İsmayılovanı ziyarət edib.***

Deputatlığa namizəd uşaqların səhhəti ilə maraqlanıb və onlara şəfa arzulayıb. 5 saylı Şəhər Klinik Xəstəxanasının Yanıq şöbəsinin müdiri Şöhrət Məmmədov uşaqların vəziyyətilə bağlı deputatlığa namizədə məlumat verib. Qeyd edib ki, uşaqların öz sağlamlıqlarına qovuşmaları üçün bütün lazımi tibbi tədbirlər görülür və onların durumu ciddi nəzarətdə saxlanılır.

Deputatlığa namizəd Hikmət Babaoğlu uşaqların valideynləri ilə də söhbət edib və onların övladlarına şəfa diləyib.

**RƏFİQƏ**

## MSK dairə seçki komissiyalarının IT mütəxəssisləri üçün seminarlara başlayıb




***Fevralın 9-da keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) müxtəlif statuslu seçki iştirakçılarının maarifləndirilməsi istiqamətində irimiqyaslı tədbirləri davam edir.***

AZƏRTAC xəbər verir ki, seçki günü məlumatlarının operativ şəkildə ictimailəşdirilməsi və şəffaflığın daha yüksək səviyyədə təmin edilməsi məqsədilə Komissiya fevralın 1-dən etibarən növbəti əhəmiyyətli layihəyə - dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssisləri üçün seminarlara başlayıb. Seminarların başlıca hədəfi IT mütəxəssislərinin Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin ümumi fəaliyyəti və yenilənərək daha da təkmilləşdirilən imkanları barədə aydın və ətraflı məlumatlandırmaq, habelə sistem üzərindən tətbiq olunan proqram təminatlarından praktiki istifadə etməklə mütəxəssisləri maraqlandıran sualları əyani şəkildə izah etməkdən ibarətdir.

Layihənin mahiyyətindən irəli gələrək seminarlar çərçivəsində IT mütəxəssislərinə Milli Məclisə seçkilər günü seçicilərin fəallığı ilə yanaşı, səsvermənin nəticələri ilə bağlı protokol məlumatlarının Mərkəzi Seçki Komissiyasına birbaşa ötürülməsi üçün xüsusi proqram modullarından praktiki məşğələlərlə test rejimində işləmək imkanı da yaradılır. IT mütəxəssislərinin iş təcrübələri, peşəkarlıq vərdişləri və praktiki biliklərinin gücləndirilməsi istiqamətində mühüm rol oynayan seminarlar işini fevralın 2-də yekunlaşdıracaq.

## Qaradağda Aydın Hüseynovun namizədliyi yekdilliklə dəstəklənəcək







***Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi 11 saylı Qaradağ Seçki Dairəsindən irəli sürülən Aydın Hüseynov seçicilərlə növbəti görüşünü Qobustan qəsəbəsində keçirib.***

YAP Qaradağ rayon təşkilatının aparat rəhbəri Hacı İbrahimov Aydın Hüseynovun həyat və fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edib ki, gənc yaşlarından rayonun Ələt qəsəbəsində əmək fəaliyyətinə başlayan Aydın müəllim 30 ildən çoxdur ki, rayonun ictimai-siyasi həyatında fəallığı ilə seçilir: "Uzun illərdir ki, YAP rayon təşkilatına rəhbərlik edir. Milli Məclisin deputatı kimi ötən müddət ərzində, seçiciləri ilə mütəmadi görüşlər və qəbullar keçirmiş, onların qayğı və problemlərinin həlli ilə ciddi maraqlanmış, qanunların qəbulunda fəallığı ilə seçilmişdir. Bir sözlə, bir deputat kimi, YAP-ın platformasını əməli işi ilə doğrultmuşdur.

Görüşdə çıxış edən deputatlığa namizəd Aydın Hüseynov müsəqil respublikamızda dövlətçiliyin qurulmasında və möhkəmlənməsində, ölkəmizin bütün sahələr üzrə dinamik inkişafında və xalqımızın rifahının getdikcə yaxşılaşmasında YAP-ın müstəsna xidmətlərini konkret faktlarla şərh edib. Bildirib ki, partiyamız xalqa əvəzsiz xitmətləri ilə ölkəmizdə digər siyasi qüvvələrə nümunə olduğunu konkret işi və nailiyyətləri ilə təsdiqləyib: "Bütün bunlarla yanaşı, partiyamız daha güclü Azərbaycan naminə fəaliyyətini durmadan genişləndirmək niyyətindədir. Bu səbəbdən də, növbəti seçkilərdə də xalqın yekdil səsini qazanmaqla, uğurlu işlərini daha da genişləndirməyə çalışır."

Görüşdə çıxış edən qəsəbə sakinləri YAP-ın cəmiyyətimizdə xidmətlərini yüksək qiymətləndirməklə, onun siyasi kursunu davam etdirmək üçün bu dairədən namizəd kimi partiya tərəfindən irəli sürülən Aydın Hüseynovu yekdilliklə dəstəkləyəcəklərini bildiriblər.

**RƏFİQƏ HÜSEYNOVA**

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## ŞABRAN

Yeni Azərbaycan Partiyasının 54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə deputatlığa namizədi Sadiq Qurbanov Şabran şəhərində -ilk dəfə səs verəcək gənclərlə, mədəniyyət işçiləri, Qələgah və Ləcədi kəndlərinin seçiciləri ilə görüşlər keçirib.

Görüşləri YAP Mərkəzi Seçki Qərargahının Şabran rayon şöbəsinin sədri Mehdi Balabəyov açaraq bildirib ki, Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasət nəticəsində, respublikamızın inkişafı sürətlənib və hər bir vətəndaş bunu öz sosial həyatında hiss edir. O, seçicilərə Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatındakı uğurları barədə məlumat verərək qeyd edib ki, bütün seçkilərdə olduğu kimi qarşıdan gələn parlament seçkilərində də xalqımız Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləyəcək və partiyamız növbəti möhtəşəm uğurunu qazanacaq.





Görüşdə çıxış edən deputatlığa namizəd Sadiq Qurbanov Yeni Azərbaycan Partiyası tərəfindən 54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə namizədliyinin irəli sürülməsinə görə partiyanın Sədri, Prezidentimiz cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib, seçicilərə Yeni Azərbaycan Partiyasının seçki platforması və öz fəaliyyəti barəsində məlumat verib. O, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına dair dövlət proqramlarının, o cümlədən regionların sosial-iqtisadi inkişafı məqsədi ilə dövlət proqramının qəbul olunmasını seçicilərin diqqətinə çatdıraraq bildirib ki, bütün bunlar ölkədə işsizliyin azaldılmasına və əhalinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə, əmək haqlarının və təqaüdlərin artırılmasına gətirib çıxarıb.

S. Qurbanov seçiciləri islahatların davamlı olmasına dəstək verməyə və Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər 9 fevral parlament seçkilərində yeni islahatlara, inkişafa səs verəcəklərini bildiriblər və Yeni Azərbaycan Partiyasının namizədi Sadiq Qurbanovun qalib gələcəyinə əminliklərini ifadə ediblər.

## XAÇMAZ

9 fevral tarixində keçiriləcək Milli Məclisə seçkilərin Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Eldəniz Adil oğlu Səlimovun növbəti görüşünə rayon ictimaiyyəti nümayəndələri və Eldəniz Səlimovun seçki kampaniyasına dəstək olaraq Kingboks Federasiyasının prezidenti Adil Əliyev və bir qrup idmançılar gəlmişlər.

Görüşü giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xanbabayev açaraq deyib ki, ölkəmizdə möhtərəm Prezidentimiz tərəfindən aparılan uğurlu islahatların nəticəsidir ki, dövlətimiz günü-gündən inkişaf edir, iqtisadiyyatımız güclənir, insanların rifah halı yaxşılaşır. Bütün bunlara görə möhtərəm Prezidentimizə təşəkkür və minnətdarlığımızı bildiririk. O, deputatlığa namizəd Eldəniz Adil oğlu Səlimovun ötən çağırışda fəaliyyəti haqqında tədbir iştirakçılarına geniş məlumat verib.





Tədbirdə Milli Məclisin üzvlüyünə namizəd Eldəniz Səlimov, seçki qərargahının üzvü Nazim Ağayev, YAP Xaçmaz rayon təşkilatı Gənclər Birliyinin sədri Fərid Musayev, Gənclər Birliyinin üzvü Amil Rəhimov, Kingboks Federasiyasının prezidenti Adil Əliyev və başqaları çıxış edərək ölkə rəhbərinin həyata keçirdiyi ardıcıl uğurlu siyasətindən, ölkəmizin inkişafından, insanların rifah halının yaxşılaşmasından, sosial paketin daima həyata keçirilməsindən, ölkə vətəndaşlarına ölkə rəhbərliyi tərəfindən göstərilən diqqət və qayğıdan danışıblar.

## OĞUZ

Yeni Azərbaycan Partiyası tərəfindən 117 saylı Oğuz-Qəbələ Seçki Dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Aqiyə Naxçıvanlı Oğuz rayon kəndləri üzrə seçicilərilə görüşlərini yekunlaşdırdıqdan sonra yanvarın 31-dən başlayaraq Qəbələ rayonundan olan seçiciləri ilə görüşlərə start verilib. Rayonun Bum, Həmzəli qəsəbələrində, Qəmərvan və Tikanlı kəndlərində seçicilər Aqiyə Naxçıvanlını böyük sevgi və coşqu hissləri ilə qarşılayıblar. Seçicilər öz çıxışlarında ölkə başçısı İlham Əliyevə ehtiramlarını bildirməklə yanaşı, Onun yürütdüyü siyasəti dəstəklədiklərini və kəndlərində aparılan abadlıq-quruculuq işlərindən, kənd sakinlərinin sosial müdafiəsinin təminatından razılıqlarını da ifadə ediblər. Seçicilərlə görüşdə, ümumilikdə, rayonun inkişafından, görülən işlərdən söhbət açılıb, bu inkişafın davamlı olacağı barədə fikirlər vurğulanıb.





Görüşdə çıxışında Aqiyə Naxçıvanlı, qanunvericilik sahəsindəki yeniliklərdən, sosial sahəyə dövlətin xüsusi diqqətindən, ölkədə aparılan çoxşaxəli islahatlardan danışıb və bu uğurların dünyaya nümunə etalonu olduğunu qeyd edib. Seçicilər də, öz növbələrində, deputatlığa namizədə uğurlar arzulayaraq, onun bir çox rayon sakinlərinin problemlərinin həllinə biganə qalmamasından, göstərdiyi köməkliklərdən danışıb, fikirlərini bölüşüblər.

Görüşə gələn seçicilər fevralın 9-da keçiriləcək parlament seçkilərində fəal olacaqlarını və layiqli namizədə səs verəcəklərini bildiriblər.

## QUSAR

51 saylı Qusar Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Azər Badamovun təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun gəncləri ilə görüşü keçirilib. Görüşü YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov açaraq, Azər Badamovun bundan əvvəlki çağırış millət vəkili kimi gördüyü işlərdən, fəaliyyətindən bəhs edərək, sakinləri seçkilərdə aktiv iştirak etməyə və layiqli namizədə səs verməyə səsləyib.





Görüşdə deputatlığa namizəd Azər Badamov çıxış edərək, son 16 il ərzində, ölkədə görülən işlərdən və həyata keçirilən uğurlu siyasətdən söz açıb. Ölkə daxilində həyata keçirilən sosial, aqrar və sənaye layihələrinin uğurla icra edildiyini görüş iştirakçılarının diqqətinə çatdırıb. Gəncləri 2 fevral Gənclər Günü münasibətilə təbrik edərək, dövlət-gənclər siyasətinə nəzər salıb.

Görüşdə iştirak edən fəal gənclərdən Ramella Əliyarova, Ayaz Abdullayev və Samirə Qasımova çıxış edərək, qusarlı gənclərin 9 fevralda keçiriləcək parlament seçkilərində yekdilliklə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Azər Badamovu dəstəkləyəcəklərini bildiriblər.

**Nəzakət ƏLƏDDİNQIZI**
**Rövşən RƏSULOV**

# AZƏRBAYCAN PREZİDENTİ 14 İLDİR Kİ, HƏR İL DAVOSA GEDİR. NİYƏ?

## YAXUD AZƏRBAYCANLILAR DAVOSDA NƏ AXTARIR?

***Hər il dünya liderlərinin toplaşdığı, müasir dünya siyasətinin ənənəvi elitar ünsiyyət və dialoq platformalarından biri, dünyanın, coğrafi-hüquqi, həm təbiət-mədəniyyət, həm də maddi-iqtisadi zəngin qovşaqlarından olan banklar ölkəsi İsveçrənin Davos şəhərində Davos İqtisadi Forumu adlı zirvə görüşü keçirilir. Əslində, bu toplantı iqtisadi forum adlansa da əsas mahiyyət etibarilə müasir dünya düzəninin, iqtisadi-texnoloji inkişaf siyasətinin müzakirəsi, proqnozlaşdırılması və bir çox gələcək proseslərin, siyasi-iqtisadi perspektivlərinin razılaşdırılması baxımından çox əhəmiyyətli dialoq vasitəsidir.***




Dünyanın siyasi, iqtisadi, elmi-texnoloji elitasının bir araya gəlməsi uzaqgörən, çevik siyasətçilər üçün çox dəyərli və münbit şərait yaradır. Əgər dünyanın aparıcı dövlətlərinin rəhbərləri Davosa gələrək bu tədbirdə iştirak edirlərsə, deməli, bu Forumun siyasi əhəmiyyəti də çox böyükdür. Məsələn, Türkiyə Prezidenti cənab Ərdoğanın İsrail prezidenti ilə dünyada nadir hadisələrdən sayılan iki dövlət başçısının dialoq zamanı dünya ictimaiyyətinin diqqəti önündə protokoldan kənar konfrantasiyasının özü elə bu forumun heç də təkcə iqtisadi forum olmadığının, siyasi əhəmiyyəti böyük olan beynəlxalq tribuna statusunun əyani göstəricisidir.

### DAVOS İQTİSADİ FORUMUNUN TARİXİ

Davos İqtisadi Forumu (DİF) isveçrəli professor Klaus Şvebsin təşəbbüsü ilə 1971-ci ildə yaradılıb.

Klaus Şvebs 1971-ci ildə İsveçrənin Davos şəhərində Avropanın aparıcı 450 şirkətinin rəhbərlərini toplayaraq, dünya iqtisadiyyatının perspektivlərini müzakirə etmək və ümumi strategiya hazırlamaq məqsədilə birinci simpoziumu keçirib. 70-ci illərin ortalarından forumun iclaslarına müxtəlif ölkələrin hakimiyyət nümayəndələri və iş dünyasının liderləri olan sahibkarlar dəvət edilməyə başlandı. 1987-ci ildən etibarən DİF Dünya İqtisadi Forumu adlandırılmağa başlanıb. Davos forumu üçün ənənəvi şəkildə keçirilən illik görüşlər xarakterikdir. DİF-in hər il keçirilməsində əsas məqsəd dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını, nüfuzlu siyasətçiləri, iqtisadçıları, biznesmenlərin iştirakı ilə yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir. 1979-cu ildən etibarən DİF-in mütəxəssisləri tərəfindən "dövlətlərin qlobal rəqabətə davamlılığı" adlı məruzə hazırlanılır. Bu məruzələrdə dünyanın 100-dən çox dövləti iki əsas göstərici əsasında - potensial inkişaf və rəqabətə davamlılıq indeksi üzrə qiymətləndirilir.

İqtisadi xarakter daşımasına baxmayaraq, Davos Forumu dünya siyasətinə, beynəlxalq münasibətlərə ciddi təsirə malikdir. Forum dünyanın iqtisadi mənzərəsinin şəkilləndirilməsində önəmli rol oynayır. Burada irəli sürülən yeni fikirlər, təkliflər qlobal iqtisadiyyata yeni istiqamətlər verir. Davos Forumu, eyni zamanda, iqtisadi güc mərkəzlərinin bir-biri ilə dialoqu və dünya ictimaiyyətinə hesabat xarakteri daşıyır.

Azərbaycandan ilk dəfə 27-31 yanvar 1995-ci ildə Prezident Heydər Əliyev Ümumdünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrənin Davos şəhərində işgüzar səfərdə olub. Azərbaycan Respublikasının DİF-də ilk dəfə iştirakı münasibətilə forum çərçivəsində Azərbaycana həsr olunan görüş keçirilib və Heydər Əliyev ölkə haqqında, onun siyasi, iqtisadi və sosial-mədəni inkişaf göstəriciləri barədə tədbir iştirakçılarına geniş məlumat verib.







Heydər Əliyev Azərbaycanın karbohidrogen ehtiyatlarla zəngin olduğunu və bu resurslardan dünyanın gələcək inkişafı naminə istənilən ölkə ilə qarşılıqlı maraqlar əsasında istifadə etmək prinsiplərini özündə əks etdirən xarici iqtisadi siyasət xətti tutduğunu bəyan edib. O, bildirib: "Zəngin neft və qaz yataqları, digər təbii sərvətləri olan Azərbaycan müasir dünyanın istifadə etdiyi prinsiplər əsasında xarici investisiyalar, xarici şirkətlərlə əməkdaşlıq üçün, dünya üçün açıqdır".

***Ardı Səh. 11***

# AZƏRBAYCAN PREZİDENTİ 14 İLDİR Kİ, HƏR İL DAVOSA GEDİR. NİYƏ?

## YAXUD AZƏRBAYCANLILAR DAVOSDA NƏ AXTARIR?




Əvvəli Səh. 10

Prezident Heydər Əliyev 27-30 mart 2000-ci ildə Davosda "Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun" mövzusunda keçirilən sessiyada iştirak edib. Səfər çərçivəsində Heydər Əliyev Dünya İqtisadi Forumunun prezidenti Klaus Şvab ilə görüş keçirib. Klaus Şvab dünyanın bütün ölkələrinin Qafqaza böyük maraq göstərdiyini bildirib, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə dair imzalanmış sazişin Azərbaycanın bütün dünyada nüfuzunun daha da artmasının əyani nümunəsi kimi dəyərləndirib. Heydər Əliyev DİF ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsinin ölkəmizin iqtisadi qüdrətinin artması üçün geniş imkanlar açacağını bildirib.

Beynəlxalq forum yalnız bir dəfə - 2002-ci ildə ABŞ-dakı 11 sentyabr terror hadisəsinə etiraz əlaməti olaraq Nyu-Yorkda keçirilib. Bu forumda 106 ölkədən 3 min nümayəndə Nyu-Yorka toplaşaraq 11 sentyabr terror hadisələrinə qarşı çıxdıqlarını nümayiş etdiriblər. Forumda Azərbaycan Prezidenti Heydər Əliyev də iştirak edib və öz çıxışında sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində baş vermiş terror aktından son dərəcə narahatlıq duyduğunu bildirib. Heydər Əliyev bütün dünya dövlətlərinin səylərini beynəlxalq terrorizmlə birgə mübarizə üçün birləşdirməyin vacibliyini bildirib. Heydər Əliyev Beynəlxalq terrorizmin qaynaqlarından birinin separatizm olduğunu bildirərək bunu Dağlıq Qarabağın timsalında izah edib: "... Bu ərazidə münaqişə məhz separatçılıq niyyətinə görə başlanmış, sonra Ermənistanla Azərbaycan arasında müharibəyə çevrilmiş və nəticədə Azərbaycan ərazisinin təxminən on altı min kvadrat kilometr hissəsi nəzarətsiz sahəyə çevrilmişdir, daha dəqiq desək, qanunsuz silahlı qüvvələrin nəzarətində qalmışdır. Bu əraziyə dünya birliyi, heç bir beynəlxalq təşkilat nəzarət etmir. Təbii ki, orada çoxlu silah toplanmışdır, orada narkotik maddələrin qanunsuz dövriyyəsi də ola bilər. Deməli, bu, münaqişə törətmək mənbəyidir, terrorizm mənbəyidir..."

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda ilk dəfə 25 yanvar 2007-ci ildə "Güclərin qlobal balansının yerdəyişməsi" devizi ilə keçirilən forumun ilk iclasında "Neft geosiyasətinin artan əhəmiyyəti" mövzusunda çıxış edib. Azərbaycan dövlətinin başçısı ölkədə qlobal enerji layihələrinin həyata keçirildiyini vurğulamaqla bunun bütün dünya üçün əhəmiyyətli olduğunu bildirib. Enerji təhlükəsizliyi məsələsində Azərbaycanın rolunun günbəgün artdığını qeyd edən dövlət başçısı energetika sahəsində əldə olunan uğurların bütövlükdə region üçün əhəmiyyətini qeyd edib. Səfər çərçivəsində İlham Əliyev Dünya İqtisadi Forumunun icraçı prezidenti Klaus Şvabla görüşüb. Klaus Şvab Azərbaycan Prezidentinin bu mötəbər Forumda iştirakının əhəmiyyətini vurğulayıb, Azərbaycanın enerji sahəsində artan rolu, regional əməkdaşlıqda iştirakını yüksək qiymətləndirib.

Bundan sonraki illərdə Davos İqtisadi Forumunda daim iştirak edən Azərbaycan Prezidenti 2009-cu il 28 yanvar-02 fevral tarixində keçirilən beynəlxalq tədbir çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və digər rəsmilərlə bir çox maraqlı tərəflərlə Azərbaycan və Avropa İttifaqı arasında işbirliyi, bölgədə təhlükəsizliyin təmin olunması, Nabukko layihəsinin gələcəyi, Türkiyə-Ermənistan münasibətləri, Ermənistan ilə Azərbaycan arasında münaqişə, İpək yolu layihəsi çərçivəsində Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlığı, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilişi məsələləri müzakirə olunub. İlham Əliyev Davos forumunun "Böyük oyun təkrarlanır", "Neft-qaz siyasəti - xəritə dəyişikliyi" mövzularındakı iclaslarda da iştirak edib.

Nəhayət, 2020-ci il yanvarın 21-24 tarixlərində Davos İqtisadi Forumunda Azərbaycan Prezidentinin qatıldığı beynəlxalq tədbirdə 3000-dən çox qonaq, o cümlədən, 100-dən artıq dövlət və hökumət başçıları iştirak edərək planetimizin əsas problemlərinin müzakirəsi təşkil olunmuşdur.

Dünyanın siyasi-iqtisadi, mədəni-texnoloji elitasının cəmləşdiyi bu platforma çərçivəsində 14 ildir ki, mütəmadi olaraq iştirak edən Prezident İlham Əliyev 300-dən çox müxtəlif görüşlər keçirmiş və böyük regional və qlobal layihələrin müzakirəsində iştirak etmişdir. Sözsüz ki, Azərbaycanın beynəlxalq iqtisadi layihələrdə birbaşa və bilavasitə iştirakı həm Azərbaycanın iqtisadiyyatının inkişafı, həm də regionun və dünyanın iqtisadi sisteminə töhfələr verilməsi baxımından çox böyük əhəmiyyətə malikdir. Davos İqtisadi Forumunun rəsmi saytında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan iqtisadiyyatının gələcəyi" mövzusunda məqaləsi yerləşdirilib. Həmin məqalədə dövlət başçısı 2007-ci ildən başlayaraq hər il Davos Forumunda iştirak etdiyini, Azərbaycan iqtisadiyyatının 2007-ci ildən bəri sabit inkişaf yolu keçdiyini, ölkəmizin Avropa ilə Asiya arasında strateji nəqliyyat mərkəzi kimi mövqe tutduğunu və Azərbaycanın Avropaya təbii qaz ixracını əhəmiyyətli dərəcədə artmasına imkan verəcək boru kəmərlərinin inkişafı kimi mühüm əhəmiyyətli məsələlərə toxunub.

Azərbaycanın Davos Forumunun hazırladığı "Qlobal Rəqabətlilik hesabatı"na görə dünyada 144 ölkə arasında 39-cu, MDB məkanında isə 1-ci yerə çıxmasını qeyd etmək mümkündür.

Davosda Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin bununla bağlı imzaladıqları niyyət protokolu ilə ölkəmizlə Forum arasında əlaqələrin yeni səhifəsinin başlanğıcı qoyulub. Çox məhdud sayda ölkələrdə yaradılan belə mərkəzlərin əsas məqsədi dördüncü sənaye inqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir. Davos İqtisadi Forumunun işində mütəmadi iştirak edən Azərbaycan dövləti bir çox beynəlxalq platformalarda olduğu kimi bu layihədə də iştirakçıdan təşkilatçı dövlət statusu qazanmışdır.

### BƏS BU BİZƏ NƏ VERİR?

Biz əvvəllər də dəfələrlə qeyd etdiyimiz kimi, bu, əvvəlla ölkəmizin beynəlxalq nüfuzunun artmasında və dünya çapında tanınması, təbliğ olunması işində bütün nüfuzlu beynəlxalq tribuna və tədbirlərdən istifadə edərək bəhrələnmək istiqamətində növbəti mühüm vasitədir. Belə beynəlxalq tədbirlərin iştirakçısı 3000 nəfərin əhatə etdiyi dünyanın 80% coğrafiyasını təmsil edən elmi, siyasi, biznes dairələridir. Onların diqqətində mədəni, inkişaf etmiş xalq, ölkə və dövlət olaraq dünya düzəninin sorunlarında




iştirak hüququ və nüfuzu qazanmaq bizə həm sosial-iqtisadi, mədəni inkişaf və eyni zamanda dövlət müstəqilliyimizin möhkəmlənməsi baxımından çox vacibdir. Adi bir misal, məsələn, Ralli yarışlarında bizim gəlirlərimiz təkcə milyonlarla vəsait qazanc əldə etmək deyil, bu beynəlxalq layihənin təşkilatçılarından biri kimi, yarım milyarddan çox izləyicisi olan bir auditoriya, tribunaya sahib olmaqdan ibarətdir.

Digər tərəfdən, iqtisadi inteqrasiyada önə çıxmaq və təşkilatçılar sırasında yer tutmaq Azərbaycanda demokratik, hüquqi təsisatların inkişaf etmiş dünya standartlarına uyğunlaşdırılmasına həm şərait yaradır, həm də bu standartların praktiki təsdiqini stimullaşdırır.

Dünya iqtisadiyyatına inteqrasiya, alternativlik, rəqabət Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmlənməsi baxımından da çox böyük əhəmiyyət kəsb etməklə yanaşı daxili iqtisadi inkişafa və vətəndaşların sosial rifah halının daha da yaxşılaşmasına və bu standartın da yüksəlməsinə öz müsbət təsirini göstərən vacib amillərdəndir. Sözsüz ki, strateji hədəflər sırasında olan belə perspektiv layihələr, zaman keçdikcə, tədricən nəticələrini göstərir. Necə ki, on illər öncə başlanan layihələrin nəticələri bu gün artıq göz qabağındadır.

***Rasim Quliyev***
***Resurs Analitik İnformasiya Mərkəzinin rəhbəri***



# Danışıqların yeni anlayış formulası

## Danışıqlar nəticəsiz qalsa, müharibə ehtimalı artır və Azərbaycanın buna hüququ var

***Məlum olduğu kimi, yanvarın 30-da Cenevrədə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında danışıqların növbəti mərhələsi keçirilib. Azərbaycan və Ermənistan XİN başçıları arasında danışıqların ilk mərhələsi 7 saat davam edib. Görüşdə Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizamlanması müzakirə edilib.***

Bu görüşlərlə bağlı siyasətçilər, politoloqlar, beynəlxalq təşkilatların nümayəndələri, ekspertlər və analitiklər bununla bağlı müxtəlif məzmunlu ehtimallar irəli sürürlər. Məqalə müəlliflərini daha çox nazirlərin cəmiyyətlərin sülhə hazırlanmasından bəhs etmələri maraqlandırır. Bunu Azərbaycanın Xarici İşlər Nazirliyi verdiyi açıqlamada da qeyd edib. Ancaq Ermənistan mətbuatında həmin mövzu ilə bağlı dərc edilən məlumatların qısa təhlili göstərir ki, burada hər şey göründüyü kimi deyil. Ermənistan tərəf real vəziyyəti təhrif edən fikirlər ifadə edir. Onlar "sülhə hazırlıq" məsələsini cəmiyyətə özlərinin təsəvvür etdikləri kimi təqdim etməyə çalışırlar.

Bu, bir tarixi həqiqətdir ki, bütün müharibələrin sonu sülhlə nəticələnir. Artıq 30 ilə yaxındır ki, ipə-sapa yatmayan ermənilərə bu adi həqiqəti qəbul etdirmək mümkün olmur. Onlar xarici havadarlarının köməyi ilə müharibədə əldə etdikləri müvəqqəti üstünlüyü özlərinin "əbədi qələbəsi" kimi təqdim etməkdən xilas ola bilməyiblər. Hətta onlar utanmadan aprel döyüşlərində erməni ordusunun və xalqının "qəhrəmanlığı"ndan bəhs edirlər.

### Qabil Hüseynli: "Ermənistan hökumətinin sülh danışıqlarından başqa çıxış yolu yoxdur"

Politoloq Qabil Hüseynlinin fikrincə, baş nazir Nikol Paşinyan nə qədər absurd fikirlər səsləndirsə də, birbaşa təmaslardan imtina edə bilməz: "Paşinyanın sərsəm ifadələri və qərəzli mövqeyi danışıqlar prosesinə ciddi zərbə vurur. İrəvan sülhün tərəfində olmadığını dəfələrlə isbatlayıb. Amma məsələ ondadır ki, düşmən hərbi əməliyyatların başlanmasını da arzulamır. Çünki Ermənistan müharibənin başlayacağı təqdirdə, fəlakətə düçar olacağının fərqindədir. Paşinyanın qaçacaq yeri yoxdur. Sabiq prezidentlər Serj Sarkisyan və Robert Koçaryan Azərbaycan torpaqlarının işğalında rol oynamış şəxslər kimi bu təhlükəli mirası Paşinyana ötürüb gediblər. Lakin artıq sabiqlər də anlayırlar ki, dövr dəyişib, şərtlər əvvəlki kimi deyil, yeni beynəlxalq anlayış formalaşıb. Pis-yaxşı proseslərə nəzarət edilir. Müəyyən mənada, işğalçı Ermənistana təzyiqlər də göstərilir. Bütün dövlətlər və nüfuzlu qurumlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Avropa İttifaqının qərarına görə, postsovet məkanındakı bütün münaqişələrə yanaşmalar, ərazi bütövlüyü çərçivəsində olmalıdır. O baxımdan, Paşinyan uzun müddət özünü "dəlioğlanlığa" qoyub, real faktlardan qaça bilməz. İrəvan hökuməti, əvvəlaxır danışıqlar masasına oturmalı və ona diktə ediləni qəbul etməlidir. Bunun əksi savaşdır".

Politoloq onu da vurğulayıb ki, xarici işlər nazirlərinin görüşlərindən öncə Fransa prezidenti Emmanuel Makron yanvarın 29-da Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng edib. Bununla bağlı Prezidentin Mətbuat Xidməti məlumat yayıb. Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə edilib, hər iki tərəf əlaqələrin inkişafından məmnun olduqlarını bildirib, iqtisadi sahədə əməkdaşlığın genişləndiyi vurğulanıb. Eyni zamanda, dövlət başçıları Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələləri də müzakirə ediblər. Prezident İlham Əliyev münaqişənin nizama salınması ilə bağlı Azərbaycanın mövqeyini bir daha Fransa prezidentinə çatdırıb. Politoloq onu da söyləyib ki, dövlət başçısı telefon danışığı zamanı, həmçinin, regional təhlükəsizlik məsələləri ilə bağlı fikir mübadiləsi aparıb.

### Rasim Musabəyov: "Rusiya Ermənistanın baş nazirinin başına ağıl qoysun ki, İrəvan Moskvanın siyasətinə maneələr yaratmasın"

Politoloq Rasim Musabəyov ATƏT-in Minsk Qrupunun həmsədrlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin vasitəçiliyi ilə keçirilən və 7 saat çəkən Azərbaycan-Ermənistan XİN başçılarının danışıqlarından elə bir gözləntilərin olmadığını bildirib: "Nə həmsədrlər, nə xarici işlər nazirləri Dağlıq Qarabağın həllindən danışırlar. Bu görüşlər mənasızdır. Xarici işlər nazirləri, sadəcə, 7 saat vaxt itiriblər. Bu ilin fevral ayında Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan Münhen Təhlükəsizlik Konfransında iştirak edəcəklər. Konfrans çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə N.Paşinyan arasında görüşün təşkil olunması istisna olunmur. Hər halda, bu danışıqlar işğalçı ölkənin baş nazirinin sərsəm yoldan çəkinməsinə və düz yola gəlməsinə gətirib çıxarar. Əks halda, başı ikinci dəfə aprel hadisəsi ilə üzləşəcək".

R.Musabəyov həmin ərəfədə Fransa Prezidenti Emmanuel Makron ölkəmizin başçısı İlham Əliyevə telefonla zəng etməsi ilə bağlı məsələyə aydınlıq gətirən politoloq bildirib ki, bu, o deməkdir ki, münaqişəni sülh yolu ilə irəli aparmaq üçün müəyyən səylər göstərilir. Ancaq bunun nəticə verib-verməyəcəyini indidən demək çətindir. Hər halda, bir daha vurğulayıram ki, Paşinyan sərsəm bəyanatlarından əl çəkib, ciddi danışıqlara başlamalıdır: "Amma bunun nəticə verib- verməyəcəyini öncədən demək çətindir. Bir onu deyə bilərəm ki, danışıqların perspektivi olmadıqca gərginlik artacaq və vəziyyəti nəzarətdə saxlamaq çətinləşəcək. Bu qədər, deyəcəyim başqa bir söz yoxdur".

### Azərbaycan öz ərazi bütövlüyünü mütləq bərpa edəcək

Bu gün, həqiqətən də, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin bir nömrəli problemidir. Məhz bu səbəbdən, rəsmi Bakı bütün səylərini, məhz bu problemin danışıqlar yolu ilə həllinə yönəldib. Əlbəttə ki, görülən işlər öz məntiqi nəticəsini verir və bu gün Azərbaycan Ordusu regionun ən güclü və ən yaxşı təchiz olunmuş ordusudur. Azərbaycan Ordusu qarşıya qoyulan istənilən vəzifəni icra etmək qüdrət və imkanına sahibdir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev keçirilən görüşlərdə dəfələrlə vurğulayıb ki, bizim mövqelərimiz möhkəmdir, güclüdür və təmas xəttində Azərbaycan Ordusu tam üstünlüyü əldə edib: "Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə, ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Biz bundan sonra da öz döyüş potensialımızı artıracağıq. Hazırda Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Son vaxtlar əldə etdiyimiz silah və texnika, deməyə əsas verir ki, biz istənilən vəzifəni biz icra edə bilərik".

### Biz hər iki varianta hazırıq

Belə bir aksioma var ki, qələbələr yalnız ordular hesabına qazanılmır. Müharibənin taleyini həm də güclü iqtisadiyyat və ölkənin diplomatik gedişləri həll edir. Bu yöndə ardıcıllıqla həyata keçirilən tədbirlər isə effektiv nəticəyə gedən yolda mühüm əhəmiyyətə malikdir. Prezident, Ali Baş Komanda İlham Əliyev də qeyd olunan görüşdə bu məqama diqqət çəkərək, vurğulayıb ki, münaqişənin həlli yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür: "Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Tarixi, əzəli Azərbaycan torpağıdır. Beynəlxalq hüquq normaları bizim mövqeyimizi dəstəkləyir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Biz heç vaxt Azərbaycan torpağında ikinci qondarma "erməni dövləti"nin yaradılmasına imkan verməyəcəyik, öz ərazi bütövlüyümüzü bərpa edəcəyik: ya sülh yolu ilə, ya hərbi yolla. Biz hər iki varianta hazırıq".

Prezident İlham Əliyevin də ifadə etdiyi kimi, beynəlxalq hüquq bəzi hallarda işləmir. Beynəlxalq hüquq normaları pozulur və dünya ictimaiyyəti buna biganə qalır. Amma bununla yanaşı, münaqişənin uzun müddətdir həllinə nail olunmamasının başlıca səbəbi Ermənistanın nümayiş etdirdiyi qeyri-konstruktiv mövqe ilə izah olunmalıdır. Ermənistan özünü qeyri-səmimi aparır, danışıqlar prosesini uzadır, həllediçi mərhələlərdə müxtəlif bəhanələrlə danışıqlardan geri çəkilib. İrəvandakı kriminal rejim beynəlxalq hüquq normalarını tanımır, işğalçılıq siyasətini bu gün də davam etdirir. Onlar danışıqlara vasitəçilik edən ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən təklif edilmiş variantlara guya öz razılıqlarını verirlər amma, eyni zamanda, Laçında qanunsuz məskunlaşdırma siyasəti aparırlar. Bu, onu göstərir ki, ermənilərin siyasəti qeyri-səmimidir və onlar beynəlxalq ictimaiyyəti aldatmaqda davam edirlər. Ona görə də, sərbəst siyasət aparmağı bacarmayan baş nazir Nikol Paşinyan "nala-mıxa" döyə-döyə qalıb. Əvvəllər "boş qalmış Azərbaycan torpaqları bizə lazım deyil" deyən Paşinyan indi işğal müddətini uzatmağa çalışır. Ermənistanın müdafiə naziri David Tonoyanın sərsəm bəyanatları da bundan qaynaqlanır. Bir tərəfdən "sülhə hazırlıq" deyən Ermənistan rəhbərliyində təmsil olunan bu adam o biri tərəfdən "müharibə yeni Azərbaycan ərazilərini işğalıdır" kimi sarsaq bəyanatlar verir. Lakin sona qədər belə davam edə bilməz. Çünki Azərbaycan tərəfinin danışıqlarda ortaya qoyacağı dəlillər kifayət qədərdir. Azərbaycan bu gün çoxpilləli müdafiə sisteminə və çoxgedişli hücum taktikasına sahibdir. Ermənistanın isə beynəlxalq hüquqi normalar çərçivəsində ortaya qoya biləcəyi hansısa bir dəlili yoxdur. Ermənistan diplomatiyası dalana dirənib. Bütün hallarda Azərbaycan cəmiyyətinə, beynəlxalq ictimaiyyətə, o cümlədən, Ermənistana və ermənilərin özlərinə bəllidir ki, Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin ərazi bütövlüyünə xələl gətirəcək hansısa sənədin qəbuluna imkan verməyəcək. Rəsmi Bakının əlində əsas tutduğu yeganə prinsip var - Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və Dağlıq Qarabağ üzərində suverenliyi təmin edilməlidir. Ali Baş Komandanın da bütün dünya ictimaiyyətinin diqqətinə çatdırdığı mövqeyi belədir ki, bu məsələ ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, bunun əsasında həll olunmalıdır: "Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil".

Bəli, bir çıxış yolu var - Azərbaycan torpaqlarını öz xoşluqları ilə boşaltmaq. Əkstəqdirdə Azərbaycan özü bunu etməyə məcbur olacaq.

**RƏFİQƏ KAMALQIZI**

# Ağstafada 2 Fevral Gənclər Günü münasibətilə gənc mədəniyyət könüllülərinin regional konfransı keçirilib





***Dünən Ağstafa Regional Mədəniyyət İdarəsi 2 Fevral Azərbaycan Gənclər Günü və "2020-Könüllülər İli" münasibətilə "Gənc mədəniyyət könüllülərinin regional konfransı" keçirilib.***

Tədbir iştirakçıları, ilk öncə, Ümummilli Lider Heydər Əliyevin Ağstafa rayon Heydər Əliyev Mərkəzinin önündə ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüblər.

Ağstafa Musiqi Mərkəzində davam edən tədbirdə, öncə, Ağstafa MKS-nin 2 Fevral Gənclər Günü münasibətilə təşkil etdiyi kitab sərgisinə baxış, ardınca akt zalında öz işinə başlayan konfrans Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olunub. Tədbir iştirakçıları, həmçinin, torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın ruhunu bir dəqiqəlik sükutla yad ediblər.

Görüşü Regional İdarənin rəisi Vüqar Qədirov açaraq regionu əhatə edən mədəniyyət müəssisələrinin gənc fəllarını "Mədəni-kütləvi tədbirlərdə fəal iştirakına görə və 2 Fevral Azərbaycan Gənclər Günü" münasibətilə fəxri fərmanla təltif edib və qeyd edib ki, 2 Fevral Gənclər Gününün Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Gəncliyinə hədiyyəsi kimi qəbul etdiyini bildirib. V.Qədirov dövlət-gənclər siyasətinin forlaşmasına və həyata keçirilməsinə xüsusi diqqət və qayğı ilə yanaşan Ümummilli Lider Heydər Əliyevin uğurlu siyasətinin layiqli davamçısı İlham Əliyevin imzaladığı fərman və sərəncamların Prezident İlham Əliyevin gənclərə göstərdiyi qayğıdan danışıb: "Prezident İlham Əliyevin Azərbaycan gəncliyi 2005-2009, 2011-2015, 2017-2021-cvi illərdə dövlət proqramları, 2015-2025-ci illərdə Azərbaycan Gənclərinin İnkişaf Strategiyası haqqında imzaladığı sərəncamlar, məhz ölkə başçısının gənclərimizi hərtərəfli qayğı ilə əhatə edilməsini təsdiqləyir. Eyni zamanda, Prezident mükafatının verilməsinin gənclərə böyük stimul verdi. Həmçinin, 2020-ci ilin "Könüllülər ili" elan edilməsinin də, məhz Prezidentimizin gənclərimizin potensialının üzə çıxarılmasında məqsədyönlü bir addımdır".

Tədbirdə Regional İdarənin məsləhətçisi Nəhayət Məstanova, Tovuz rayon MKS-nin əməkdaşı Fidan Rüstəmova, Ağstafa rayon Hüseyn Arif Ev Muzeyinin əməkdaşı Günay Məmmədli, Qazax şəhər 2 saylı Uşaq Musiqi Məktəbinin müəllimi Günel Əkbərli, Ağstafa rayon Həsənsu Kənd Folklor Evinin müdiri, gənc şair Rüfət Axundlu, Ağstafa rayon MKS-nin əməkdaşı Günay Qədiməliyeva, Regional İdarənin KİV və sosial şəbəkələr üzrə koordinatoru Xəyal Nağıyev məruzə ilə çıxış ediblər.

Tədbir Regional İdarəni əhatə edən Tovuz, Qazax və Ağstafa rayonlarının gənc mədəniyyət və incəsənət işçilərinin, əməkdaşlarının və musiqi məktəblərinin şagirdlərinin hazırladıqları konsert proqramı ilə davam edib.

***R.KAMALQIZI***



# Binəqədidə "Gələcəyə könüllü - Azərbaycan gəncliyi" adlı tədbir keçirilib



***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı 2 Fevral Gənclər Gününə həsr edilmiş "Gələcəyə könüllü - Azərbaycan gəncliyi" adlı tədbir keçirib. Tədbirdə rayonun fəal gəncləri iştirak edib.***

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının aparat rəhbəri Sevinc Abdullayeva tədbir iştiirakçılarını gənclər günü münasibətilə təbrik edib. Gənclərin öz köklərinə və milli-mənəvi dəyərlərinə bağlı, azərbaycançılıq ideologiyasına sadiq, əyilməz və tükənməz güc olduğunu söyləyib. Bu gün dövlətimizin gənclərin gücünə inandığını və bütün sahələrində bu gücdən istifadə edildiyini vurğulayıb. Həmçinin, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan bu günün əhəmiyyətindən danışaraq, dövlət- gənclər siyasətinin uğurlarından bəhs edib. O, bu günlərdə ölkəmizdə parlament seçkilərinin keçiriləcəyini diqqətə çəkərək, gənclərin hər birini seçkilərdə fəal iştirak etməyə və ölkənin əlamətdar tarixində demokratik dövlətimizin onlara nəsib etdiyi seçki hüququndan yaralanmağa çağırıb.

Tədbirdə çıxış edən parlament seçkilərində Yeni Azərbaycan Partiyasının 9 saylı Binəqədi ikinci Seçki Dairəsindən namizədliyi irəli sürülmüş Kamaləddin Qafarov gəncləri təbrik edərək, 2 Fevral Azərbaycan Gənclər Gününün əhəmiyyətindən danışaraq, bu günün Ulu Öndərimiz tərəfindən gənclərə hədiyyə edildiyini diqqətə çatdırıb. Kamaləddin Qafarov ölkə başçısı tərəfindən dövlət-gənclər siyasətinə yüksək qiymət verildiyini vurğulayaraq, bu gün Azərbaycan gəncliyinin ictimai həyatın bütün sahələrində fəallığı ilə seçildiyini və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynadığını bildirib. Müstəqil bir ölkə kimi Azərbaycanın özünün dinamik inkişafının növbəti mərhələsinə yeniləşən cəmiyyət, qüdrətli iqtisadiyyat və davamlı islahatlarla zəngin olan yeni parlamentli mərhələsinə qədəm qoyduğunu vurğulayıb.

Daha sonra şəhid ailəsindən olan, ilk dəfə səs verəcək gənc Nigar Aboyeva və Fövqəladə Hallar Nazirliyinin N saylı hərbi hissəsində xidmət göstərən gənc əsgər Fəsli Nəbiyev gəncləri təbrik edərək, gənclər gününün yaranma tarixindən və əhəmiyyətindən danışıblar.

Daha sonra tədbir Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup fəalı gənclər günü münasibətilə Fəxri Fərmanla təltif edilib və YAP sıralarına yeni üzv qəbul edilmiş bir qrup gəncə partiyanın üzvlük vəsiqəsi təqdim edilib.

Tədbir tanınmış müğənnilərin çıxışları ilə yekunlaşıb.

***ZÜMRÜD BAYRAMOVA***

# "AŞ PA-nın təxribat xarakterli son qətnaməsi heç bir siyasi-hüquqi mahiyyət daşımayacaq"




***Avropa institutları tərəfindən tez-tez ölkəmizlə bağlı qərəzli bəyanat və qətnamələrin şahidi oluruq. Ən maraqlı məqam isə məhz zaman faktoru ilə bağlıdır. Hər dəfə ölkəmizdə beynəlxalq əhəmiyyətli tədbir keçiriləndə, bütün dünyanın diqqəti Azərbaycana yönələndə, yaxud da ölkəmizdə seçki prosesi yaşandıqda Avropanın ayrı-ayrı institutları tərəfindən bu cür xoşagəlməz bəyanatlar verilir. Beləliklə, "Niyə məhz indi?" sualının cavabı da aydınlığa qovuşur.***

Bunu Trend-ə politoloq Ceyhun Əhmədli Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyasında "Azərbaycanda siyasi məhbuslarla bağlı məlumatlar haqqında iş" üzrə qətnaməyə münasibət bildirirkən deyib. Politoloqun fikrincə, burada məqsəd dünyanın diqqət mərkəzinə düşdüyü an Azərbaycan dövlətini qaralamaqdır:

"Söz yox ki, son qəbul edilən qərəzli qətnamənin də arxasında erməni lobbisindən maliyyələşən deputatlar dayanır. Mən bu cür qətnamələrin Avropa ilə münasibətlərimizin korlanmasına rəvac verəcəyini qətiyyən düşünmürəm. Çünki vaxtilə bu kimi siyasi təxribatlarla çox qarşılaşsaq da, ən sonda qarşılıqlı faydalı münasibətlərimiz qorunub-saxlanılıb". C.Əhmədli vurğulayıb ki, bu gün Azərbaycan Avropa İttifaqı ölkələri ilə çox sıx tərəfdaşlığa sahibdir: "Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfələr verir. Bu baxımdan, düşünürəm ki, AŞ PA-nın təxribat xarakterli son qətnaməsi də kağız parçasından başqa heç bir siyasi-hüquqi mahiyyət daşımayacaq".



# İngiltərəni bundan sonra nə gözləyir?

***"Böyük Britaniya, rəsmi olaraq, Avropa İttifaqını tərk etdi. Maraqlıdır, indi bu ölkənin gözləntiləri nədir və nə planlaşdırılır" kimi bir sual dünya ictimaiyyətini düşündürür. Düşündürən suallardan biri də odur ki, hansı razılıqlar ola bilər? Ümumiyyətlə, Böyük Britaniyanın Avropa İttifaqını rəsmi şəkildə tərk etməsi, digər dövlətlərin, hətta ayrı- ayrı vətəndaşların belə diqqət mərkəzindədir və hadisələrin gedişi maraqla izlənilir.***

Siyasətçilərin fikrincə, indi bu ilin sonuna qədər ölkə bir keçid dövrü keçəcək. Qeyd olunur ki, İngiltərə ilə Avropa Birliyi münasibətlərinin necə qurulacağına dair razılığa, bu müddət ərzində gələcəklər. Mütəxəssislər, bu müddətdə çox sayda problem yarana biləcəyini və Aİ-yə qayıdan tərəfdarların sayının da artacağını istisna etmirlər. "Çox çətin danışıqlar gözlənilir. Ticarət sazişinin necə olacağı, rüsumların, balıq ovunun, vizaların necə tənzimlənəcəyi də bəlli deyil. Bir sözlə, bir il içində həll edilməməsi mümkün olmayan bir sıra problemlər də var" deyə Rusiya Elmlər Akademiyası Avropa İnstitutunun sosial və siyasi tədqiqatlar şöbəsinin müdiri Vladimir Şveyser bəyan edib. Avropa Komissiyasının sədri Ursula fon der Leyen isə, hesab edir ki, Avropa İttifaqı Böyük Britaniya üçün keçid dövrünü yayın ortalarına qədər uzatmaq məcburiyyətində qalacaq. Bundan əlavə, mütəxəssislər, eyni zamanda, hesab edirlər ki, Böyük Britaniya sakinləri Avropa İttifaqını tərk etməyin nəticələrini dərhal hiss etməyəcəklər.



Həmin mütəxəssislərin fikrincə, keçid dövründə dövlətin ərazi bütövlüyü problemi də kəskinləşəcək. Onlar düşünürlər ki, eyni ərazini bölüşən, hələ də müstəqillik arzusunda olan xalqlar bu vəziyyəti öz məqsədlərinə çatmaqları üçün münbit şərait kimi qiymətləndirəcəklər. Belə olan halda isə, həmin xalqlar arasında narazılıqlar, müxtəlif iddiaların yenidən baş qaldıracağına, görünür, onlar çox əmindirlər.

Belə bir sual da ortaya çıxır ki, görəsən, xarici işçi qüvvəsi məsələsi nə yerdə qalacaq? Yaxud Avropa İttifaqını tərk edən bu ölkə, xarici işçi qüvvəsi olmadan nə etmək niyyətindədir və bu məsələni necə həll edəcək? Çünki heç kim üçün sirr deyil ki, Avropa İttifaqından gələn əmək miqrantları olmadan Böyük Britaniyanın iqtisadiyyatı sual altında qalır. "İndi onların sayını necə tənzimləmək mümkün olacaq? Hansı vergiləri ödəməlidirlər? Təbii ki, Edinburqun ayrılmaq arzusu güclənəcək" deyə Rusiya Elmlər Akademiyası Avropa İnstitutunun Britaniya Tədqiqatlar Mərkəzinin baş elmi əməkdaşı Kira Qodovanyuk bildirib. Doğrudur, Avropa İttifaqı ilə ayrılmadan əvvəl, Boris Johnson, Birləşmiş Krallığın gələcək inkişafı barədə və prioritetlər haqda açıqlama verib. Amma görünür, Johnson ya gözlənilənlərin fərqində olmayıb, ya da bunu, sadəcə, gizlədib və dilə gətirməyib. Hər bir halda, bu vəziyyət Böyük Britaniyanın özünə aiddi və cavabdehlik də onların öz üzərindədir. Sadəcə, bir məsələ diqqəti cəlb edir ki, ən yaxın zamanda Avropanın mərkəzində gözlənilən çaxnaşmaları, müstəqillik istəyi, arzusu ilə baş verəcək qarşıdurmaları bu qədər səriştəli siyasətçi niyə hesaba almır?

Böyük Britaniyanın Avropa İttifaqını tərk etməsi, əslində, bir çox ölkələr üçün də presedent ola bilər. Ən azından, bu və ya digər mənada, bundan nümunə götürəcəklər. Hadisələrin gedişini proqnozlaşdırmaq çətindir, lakin politoloqlar, bu sahədə ixtisaslaşmış mütəxəssislər Böyük Britaniyanın, ən azından, bu ilin sonuna qədər bir keçid dövrü keçəcəyinə əmindirlər və bu müddətdə, çox sayda problem yarana biləcəyini düşünürlər.

*İnam HACIYEV*

# Daha bir müxalifətçi namizəd seçki prosesindən razı qaldığını dedi

*Sərdar Cəlaloğlu: "Şəxsən mənim dairəmdə bu günə qədər icra strukturlarının müdaxiləsinə rast gəlinməyib"*



Bir sıra qərəzli və böhtançı müxalifət təmsilçilərindən fərqli olaraq, seçki prosesi ilə bağlı müsbət fikirlərlə çıxış edən düşərgə təmsilçiləri də var. Onlar sözügedən prosesin şəffaf və müdaxiləsiz olduğunu deməklə yanaşı, seçkilərin kifayət qədər uğurlu olduğunu, demokratik dəyərlərə söykəndiyini deyirlər. Onlardan biri də ADP sədri Sərdar Cəlaloğludur. Mediaya açıqlamasında "seçkilərə bu vaxta qədər müdaxilələr olmayıb" deyən müxalifətçi partiya sədri bəzi strukturların, ümumiyyətlə, müdaxilə etmədiklərini də açıqlayıb: "Şəxsən mənim dairəmdə bu günə qədər icra strukturlarının müdaxiləsinə rast gəlinməyib. Təbliğatımızı açıq aparırıq və heç bir müdaxilə də yoxdur".

Onu da xatırladaq ki, ADP sədri S.Cəlaloğludan əvvəl siyasi müxalifəti təmsil edən VHP sədri Sabir Rüstəmxanlı da eyni fikri bölüşüb. O da, öz növbəsində, bildirib ki, 1600 nəfərə yaxın namizəd qeydə alınıb və heç kəsə əngəl yaradılmayıb.

"Kim harada istəsə, görüşünü keçirir, öz təbliğatını aparır" deyən VHP sədri, şəxsən onun özü də daxil olmaqla, 14 nəfərin içərisində hansısa əngəlin yaradıldığını görmədiyini bildirib: "Hamı sərbəst şəkildə görüş keçirirb, öz sözünü deyir. Məncə, digər dairələrdə də vəziyyət belədir. Hesab edirəm ki, seçki prosesi normal və şəffaf təşkil olunub".

Qeyd edək ki, bəzi xarici dairələr və onlarla iş birliyində olan destruktiv müxalifətçilər əsassız iddialar irəli sürərək, guya onlara əngəllər yaradıldığını bildirsələr də, onların bu kimi iddiaları ictimai rəy tərəfindən ciddi qəbul olunmur. O cümlədən, bəlli olur ki, seçki prosesinə qərəzlə yanaşı, beləəri öz uğursuzluqlarını ört-basdır etməyə cəhdlər göstərirlər. Amma göründüyü kimi, sağlam düşüncəyə malik müxalifətçi namizədlər prosesin normal, müdaxiləsiz və əngəlsiz getdiyini deməklə, radikal baxışlıların iddialarını alt-üst edirlər.

*Rövşən NURƏDDİNOĞLU*

# Paşinyan dalana dirənib və Qarabağı təhvil verir

*Samvel Babayan: "Danışıqlar prosesi ilə bağlı maraqlı situasiya yaranıb"*

***Qondarma "DQR"in sabiq "müdafiə naziri" Samvel Babayan Nikol Paşinyanın Qafanda erməni ictimaiyyətində ajiotaj və qalmaqal yaradan çıxışına münasibətini bildirərkən deyib ki, o, işğal olunmuş əraziləri qaytarmaq üzrədir. "Ermənistan baş nazirinin öncəki hakimiyyətlər tərəfindən ona ötürülmüş danışıqlar prosesi ilə bağlı verdiyi bəyanatı ətrafında maraqlı situasiya yaranıb. Nəhayət ki, dövlət başçısının - Ermənistanın danışıqlar aparmaq üzrə əsas şəxsinin ağzından belə bir ifadə səsləndi ki, bütün "azad" (dırnaqlar bizimdir-R.R.) olunmuş ərazilər təhvil veriləcək və hər üç prezident, məhz bu kontekstdə danışıqlar aparıblar" deyə separatçının bəyanatında bildirilir.***



### "Paşinyan torpaqların təhvil verilməsi şərti ilə imza atmalı olacaq"

Samvel Babayan bildirib ki, əgər Ermənistanda inqilab olmasaydı, yalnız bufer ərazilər deyil, Qarabağın özü də, bütünlüklə, təhvil veriləcəkdi. "Nikol Paşinyanın "məxməri inqilab"ının əsas xidməti ondadır ki, Serj Sarkisyanın Madrid əsaslarında apardığı danışıqlar və torpaqların verilməsi prosesi dayandırıldı" deyə Babayan bəyan edib ki, buna baxmayaraq, danışıqlar prosesi bərpa olundu və yenə də Madrid prinsipləri əsasında. Onun sözlərinə görə, hazırda Paşinyan dalana sıxışdırılıb və o, danışıqlar prosesini bu şəkildə davam edərsə, bu zaman torpaqların təhvil verilməsi şərti ilə imza atmalı olacaq.

### "Madrid sənədində ikimənalı traktovka və formulaların dəyişdirilməsi təklifi nə qədər qəribə görünsə də razılaşdırılıb"

"Əgər danışıqlardan imtina edərsə, bu, daha öncəki hakimiyyətlərin torpaqların qaytarılması ilə bağlı Azərbaycana verilmiş sözə əməl etməməsi mənasını daşıyacaq, sözsüz ki, müharibəyə təhrik edəcək. Həm birinci, həm də ikinci ssenari bütün erməniçilik üçün yolverilməzdir..." deyən Babayan xatırladıb ki, Paşinyanın Qarabağ "hakimiyyəti" ilə birgə keçirdiyi Təhlükəsizlik Şurasının iclasında baş nazirin Madrid sənədində ikimənalı traktovka və formulaların dəyişdirilməsi təklifi, nə qədər qəribə görünsə də, razılaşdırılıb. "Bu gün danışıqlarda diktə edən Azərbaycandır və bu, öncəki hakimiyyətlərin təqsiri səbəbindəndir, eləcə də, Qarabağın əvvəlki və hazırkı "hakimiyyətləri" də günah sahibidirlər" deyə separatçıların sabiq "müdafiə naziri" bildirib.

*Rövşən RƏSULOV*

# AŞPA-nın "siyasi məhbus" hoqqabazlığı

*Radikal müxalifət indi də bu hoqqabazlıqlarını seçki oyunbazlıqlarının gözünə qatmaq istəyir*

***Bu günlərdə Avropa Şurasının Parlament Assambleyasının Azərbaycanda mövcud olan "siyasi məhbus"ların məsələlərinə dair qətnaməsi hoqqabazlıqdan başqa bir şey deyil.***




Leonid Slutski:
**"Azərbaycanda "siyasi məhbus"lar yoxdur"**

Sözügedən məsələ ilə bağlı Rusiyanın AŞPA-dakı nümayəndə heyətinin üzvü, Dövlət Dumasının Beynəlxalq İşlər Komitəsinin başçısı Leonid Slutski isə bildirib ki, Azərbaycanda "siyasi məhbus"lar yoxdur. Siyasətçinin sözlərinə görə, Azərbaycanda "siyasi məhbus"ların məsələlərinə dair məruzə bu mövzuda indiyədək təqdim edilmiş sənədlərlə müqayisəyə gəlmir: "Azərbaycanda "siyasi məhbus"lar yoxdur. Biz dəfələrlə bunu bəyan etmişik və assambleyada, onun hüdudlarından kənarda bəyan edəcəyik. Lakin bununla belə, deməliyik ki, bu gün qəbul edilən qətnamə layihəsi Azərbaycan rəhbərliyinin və parlamentinin Avropa Şurası ilə əməkdaşlıq istiqamətində işini mahiyyət etibarilə müsbət qiymətləndirir. Azərbaycan Respublikasının nümayəndə heyətinin AŞPA ilə əməkdaşlığının və Azərbaycana dair müxtəlif növ keyslərin hazırlanmasının leytmotivi də mifik siyasi məhbuslar deyil, məhz budur".

Slutski "Azərbaycan nümayəndə heyətini gözəl işi münasibətilə" təbrik edərək, fikrini bu sözlərlə tamamlayıb: "Əminəm ki, ən yaxın gələcəkdə Azərbaycanın fəaliyyətinə dair hər hansı mənfi ştrix qalmayacaq".

**Niyə AŞPA tərəfindən Dilqəm Əsgərov və Şahbaz Quliyevin girov saxlanılmaları barədə Ermənistana qarşı tələblər irəli sürülmür?**

Azərbaycanla bağlı dəfələrlə qərəzli və reallığa söykənməyən qərarlar hazırlayan AŞPA, nədənsə, digər keçmiş sovet respublikaları, eləcə də, Qərbdə baş verən insan haqları pozuntularına qarşı hesabatlar hazırlamır. Halbuki Azərbaycanla qonşu olan və torpaqlarımızın 20 faizini hələ də işğal altında saxlayan Ermənistanda insan haqlarının pozulmasını, siyasi məhbusların mövcudluğunu sübut edən minlərlə faktlar mövcuddur.

Nədənsə, öz doğma yurd-yuvalarının həsrətini çəkdiklərinə görə işğal altında qalan Kəlbəcərə səfər edən, oradakı məzarlarını ziyarət edən, nəticədə, erməni separatçılarının girovuna çevrilən Dilqəm Əsgərov və Şahbaz Quliyev barədə erməni tərəfinə qarşı tələblər irəli sürülmür. Bu kimi reallıqlar AŞPA-nın səmimi qurum olması amilini, necə deyərlər, kölgədə qoymaqdadır.

Digər əsas məsələ, başqa ölkələri kənara qoyub, onların əməllərinə göz yummaq, hüquqda, beynəlxalq qanunvericilikdə olmayan "siyasi məhbus" terminini yalnız bir ölkəyə şamil etmək, digər ölkələrə gəldikdə isə, bu terminin yerinə "azadlıqdan məhrum olunmuş insanlar" ifadəsini işlətmək, məhz bu təşkilatın qeyri-ciddiliyini sərgiləməkdədir.

Bax, budur dağıdıcı düşərgə liderlərinin siması və simasızlığı. Azərbaycanın dövlətçilik maraqlarını valyutalara satan AXCP sədri Ə.Kərimli xəyanətkarın irli kuklası, "Milli Şura"nın sədri xəyanətkar nökəri Cəmil Həsənli, minsifət satqın Gültəkin Hacıbəyli, Müsavat başqanı Arif Hacılı və... bu kimi viruslar müstəqil, məqsədyönlü və qətiyyətli siyasət aparan Azərbaycan dövlətinin ardıcıl uğurları, dünyadakı mövqeyini möhkəmləndirməsindən narahat olur. Həmin qüvvələr isə bunun yolunu Azərbaycandakı cüzi problemləri süni şəkildə böyütmək, regionun digər dövlətlərində olan böyük problemləri isə cüzi məsələ kimi qələmə verməkdə görürlər.

Heç şübhəsiz ki, böhtan ayaq tutsa da, yerimir və "ağ"ları "qara"larla ləkələmək mümkün deyildir. Öz "qara"sı ilə cəmiyyətə bulaşdırmağa çalışan bu adamların susdurulması üçün də elə son sözü xalq deyəcək. Necə ki, vaxtilə AXC-Müsavat cütlüyü iqtidarda olarkən torpaqlarımızı ermənilərə peşkəş verdiklərinə, dövlət büdcəsini məhv etdiklərinə və ölkədə xaos yaratdıqlarına görə xalq bu adamları süpürüb zibilliyə atdı. Görünən budur ki, bunların yenidən "süpürülüb" zibilliyə atılmağa ehtiyacları var. Çünki son illərdə xarici təxribatçı, ermənipərəst dairələrin dəstəyi ilə müəyyən qədər "qol-qanad" açıblar.

**AŞPA "siyasi məhbus" oyununu elə özü kimilər oynayacaq...**

Bəli, AŞPA-nın Azərbaycana qarşı qərəzi nə birinci, nə də sonuncudur. Çünki heç bir Avropa dövlətinin cinayət məcəlləsində "siyasi məhbus" anlayışı olmayıb və hazırda da yoxdur. Belə ki, bu anlayış beynəlxalq sənədlərə, Konvensiyalara salınmayıb. Ona görə də bəzi beynəlxalq təşkilatların, eləcə də, Avropa Şurasının üzvü olan hər hansı bir ölkənin "siyasi məhbus" adı altında Azərbaycanda layihə həyata keçirmək niyyətinin saf məqsəd daşımadığı bəri başdan aydındır. Nəticə olaraq isə, bu cür addımlar Azərbaycanın daxili işlərinə müdaxilə və ölkədə ictimai-siyasi sabitliyin pozulmasına istiqamətlənmiş əsassız və qərəzli addım kimi qiymətləndirilə bilər. Söz yox ki, belə davam edərsə, Azərbaycan dövləti də kəskin və həqiqətlərə söykənən reallıqlardan çıxış edərək, əslində, Avropa ölkələrində, eyni zamanda, Qərbdə baş verən kütləvi hüquq pozuntularını ifşa edə bilər. Belə faktlar isə kifayət qədərdir. Bir də Azərbaycanla bağlı dəfələrlə qərəzli və reallığa söykənməyən hesabatlar hazırlayan AŞPA nə səbəbdən digər keçmiş sovet respublikaları, eləcə də, Qərbdə baş verən insan haqları pozuntularına qarşı hesabatlar hazırlamır. Halbuki torpaqlarımızın 20 faizini hələ də işğal altında saxlayan Ermənistanda insan haqlarının pozulmasını, siyasi məhbusların mövcudluğunu sübut edən minlərlə faktlar mövcuddur. Bu kimi reallıqlar AŞPA-nın səmimi qurum olması amilini, necə deyərlər, kölgədə qoymaqdadır.

Eyni zamanda, heç kimə sirr deyil ki, Ermənistanın hakimiyyət dairələri və dünyanın bir sıra ölkələrindəki erməni diaspor təşkilatları illərdir maliyyə imkanlarını işə salaraq, AŞPA-da bir sıra deputatları, habelə, Avropa İttifaqı müxtəlif ölkələrində jurnalistləri, siyasətçiləri və ictimai xadimləri satın alaraq Azərbaycana qarşı kampaniya aparırlar. Bu kampaniyanın ideoloqu da elə Corc Sorosdur. AŞPA üzvü, ukraynalı deputat Vladimir Ariyevin başına gələnlər deyilənləri təsdiq edən sübutdur. Ariyev özünün "FACEBOOK" səhifəsində açıq-aydın yazır ki, son illər Avropa Şurasının Parlament Assambleyası yalan və iftiralar məkanına çevrilir: "Burada deputatları satın almaq istəyirlər. Ermənistandan olan deputatlar Samvel Farmanyan, Naira Karapetyan və Naira Zohrabyan mənə Azərabycana qarşı çıxışlar edərək, sənədləri imzalamağın müqabilində pul təklif etdilər. Daha sonra mənə təklif olundu ki, Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal olunması faktını danım, pul alım. Mənə 3 butulka erməni konyakı təklif etdilər".

Artıq əlavə izaha ehtiyac yoxdur. AŞPA-nın son qətnaməsi sübut etdi ki, erməni lobbisinin bir sıra təşkilatları və onların Soros kimi havadarları Azərbaycana qarşı yeni ittihamların, ölkəmizin insan haqları, söz və dini azadlıqların pozulmasına yönəlmiş iddiaların sayının maksimuma çatdırılmasına çalışırlar və dinc dayanmaq fikirləri yoxdur. Amma bir məqamı unudurlar. Bu ləkə bu dövlətə yapışmayacaq. Azərbaycanla əmr dilində danışmaq mümkün deyil. Azərbaycan Ermənistan kimi kiminsə forpostu da deyil. Bir də Avropa Şurasından bundan artıq heç nə gözləmək olmaz.

***Rəfiqə HÜSEYNOVA***



# Leyla Yunus, elə yerin oradır...

RƏFİQƏ

***"Sülh və Demokratiya İnstitutu"nun rəhbəri, hazırda özünü "hüquq müdafiəçisi" adlandıran erməni xislətli Leyla Yunus, həmçinin, onun əri Arif Yunus yenə də seçkiərəfəsi müxtəlif səpkili oyunlar oynamaqdadır. Xüsusilə də, bu günlərdə AŞPA-nın "siyasi məhbus" adlı "qətnaməsindən" sonra cuşə gələn bu satqın viruslar simasızlıqlarını daha açıq formada göstərməkdədirlər. Əslində, bu, kimsədə təəccüb də doğurmur.***

Çünki o, hələ əvvəlki dövrlərdə, xüsusilə, AXC-Müsavat iqtidarı zamanlarında dövlətdə yüksək vəzifə tutarkən, xalqa və millətə xəyanət edib və özünü "əzabkeş" kimi təqdim edən L.Yunus bu dəfə də öz murdar xislətindən əl çəkmir. Hətta yaxın zamanlarda bu satqınların Ermənistan xüsusi xidmət orqanlarının keçmiş rəhbəri David Şahnazaryanın növbəti dəstəyi ilə Azərbaycandan bəhs edən əhvalatlarını kitab halında Ermənistan piştaxtalarında satışa çıxaracaqlar. Hətta bu satqınlar birdəfəlik mənsub olduğu ölkəyə-Ermənistana köçməyi də planlaşdırıblar. Bu, yaxşı xəbərdir. Çünki Leyla-Arif və Yunuslar koronavirusdan da betər sağalmaz viruslardır. Elə onların yeri oradır. Çünki bir danılmaz həqiqət mövcuddur - bu ünsür Vətənə xəyanətin simvolu kimi artıq çoxdan "tarixə" düşüb. Bu gün "Leyla Yunusa azadlıq!" şüarını səsləndirərək, siyasi manipulyasiyalar fonunda "lider" kimi görünənlər də eynilə "hüquq müdafiəçisi"nin ermənipərəst mövqeyi ilə seçilməsini, erməni maraqlarına xidmət etməsini dəstəkləyənlərdəndirlər. Çünki hara, necə, nə cür və hansı üsulla manipulyasiyalar etmələrinə rəğmən, qaçınılmaz sübutdur ki, L.Yunus bütün fəaliyyəti dövründə Azərbaycan xalqına və dövlətinə düşmən münasibəti göstərib, beynəlxalq ictimaiyyətdə ölkəmiz haqqında mənfi rəy formalaşdırmağa çalışıb.

Hətta bu satqınlara olayları izləyərkən, nəticəyə gələrək, belə bir rəy formalaşdırmaq olar ki, bu gün L.Yunusu müdafiə edən erməni mətbuatı ölkəmizdə dərc edilən radikal müxalifət mətbuatı ilə informasiya mübadilələri aparır. Yəni yayılan xəbərlərin mahiyyəti eynilik təşkil edir. Baxmayaraq ki, bir tərəf erməni dilində yazır, o biri tərəf də Azərbaycan dilində!

Əbəs yerə deyil ki, dağıdıcı müxalifət mediası tez-tez Azərbaycanın sanksiyalarla üz-üzə qalacağı barədə dezinformasiyalar yayırlar. O da, təsadüfi deyil ki, L.Yunus çox primitiv, hətta plagiat şəkildə sovet hakimiyyəti dövründə tanınmış dissidentlərin (deyək ki, Soljenitsının - R.H.) dəst-xəttini təkrarlamağa, özünü onlarla bir cərgəyə qoymağa çalışır. Amma bu da nəticəsiz qalır və haqq qazandıranların isə azərbaycançılıq faktoruna nə qədər ziyan vuranlar olduğunu demək və düşünmək kifayətdir. Çünki Azərbaycan ictimaiyyəti Leyla və Arif Yunusları şiddətlə qınayır və onların yenidən həbsini antimilli və cinayətkar, satqınçılıq fəaliyyətin məntiqi nəticəsi hesab edir. L.Yunus isə "Bizim adımızı tarixdən silmək mümkün olmayacaq" tipli bəyanatlar verməklə, əri də daxil olmaqla, adları Azərbaycanın şanlı tarixində Vətənə xəyanətin simvolu kimi qalacaq. Ona görə ki, bu "tarix" yalnız şərdən, böhtandan, xəyanətdən və cəmiyyətə vurulmuş qara ləkədən ibarətdir.

# Göygöldə baş verən yol qəzasında bir nəfər ölüb

Daxili İşlər Nazirliyi (DİN) Göygöl rayonunda baş verən yol-nəqliyyat hadisəsi ilə bağlı məlumat yayıb. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Göygöl rayonunun Yeni Qızılca kəndi ərazisində kənd sakini A.Orucov idarə etdiyi "Ford Transit" markalı avtomobili yolun kənarında dayanmış, Şəmkir rayon sakini N.Murtuzayevə məxsus "ZİL" markalı avtomobilə vurub. Nəticədə A.Orucovun avtomobilində olan sərnişinlərdən Aidə Orucova hadisə yerində ölüb, digər sərnişin xəstəxanaya yerləşdirilib. Hadisə ilə bağlı Göygöl Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.



# DİN: Ötən gün ərzində törədilmiş 36 cinayətin üstü "isti izlər"lə açılıb

Ötən gün ərzində törədilmiş 36 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış yeddi cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 31 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 16 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında baş vermiş bir ağır yol-nəqliyyat hadisəsi nəticəsində bir nəfər ölüb, bir nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 28 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 51 nəfər saxlanılıb.

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

2 fevral

# SƏS

Son səhifə



## Kardioloqlar infarkt simptomlarını açıqladı

Alman kardioloqları gözlənilməz infarkt simptomları sadaladılar. SİA xarici mətbuata istinadən xəbər verir ki, bu barədə Alman Ürək Fondunun kardioloqları Focus.de-yə müsahibədə bildiriblər. Kardioloqlar, ayaq ağrılarının infarkt riskinin artacağını göstərə biləcəyi barədə xəbərdar ediblər. Həkimlərin dediyinə görə, gəzinti zamanı tez-tez ayaq ağrıları, əslində isə ürək problemləri səbəbindən küçədə dayanmağa məcbur olan şəxslərin guya vitrinlərə tamaşa etdiyinin şahidi olmaq olar. Bundan əlavə həkimlər deyirlər ki, ürək problemləri ilə əlaqədar narahatlıq, barmaqların ətrafındakı ağrılar da meydana gələ bilər.

## Misirdə terrora görə 37 nəfər edam olunacaq



Qahirənin cinayət məhkəməsi misirli terrorçu Heşam Aşmavi və "Ənsar Beyt əl-Maqdes" terrorçu qrupun daha 36 üzvü edam cəzasına məhkum edilib . Onlar polis əməkdaşlarına qarşı çoxsaylı silahlı hücumlarda təqsirli biliniblər. "Egypttoday" portalının yazdığına görə, məhkəmənin qərarı məsləhət üçün ölkənin Ali Müftisinə göndəriləcək və martın 2-dək təsdiq ediləcək. Sözügedən cinayət işində mərhum Daxili İşlər naziri Məhəmməd İbrahimin qətli, inzibati binaların bombalanması və polislərə 54 silahlı hücumda iştirak etmiş 208 müttəhim hakim qarşısına çıxarılıb. Qeyd olunub ki, terrorçu Aşmavi Liviyadan ötən ilin noyabrında Misirə ekstradisiya olunub və bu cinayətkar 28 zabit və əsgərin qətlə yetirilməsində iştirak edib. "Ənsar Beyt əl-Maqdes" terror təşkilatı 2014-cü ildə İŞİD-lə müttəfiq olduğunu elan etsə də, adıçəkilən terrorçu sonuncunu tanımaqdan imtina edib.

## Alman klubu transferlərə 98 milyon avro xərclədi

"Herta" qış transfer pəncərəsində Avropada ən çox pul xərcləyən klub olub. Bu barədə transfermarkt.de saytı yazır. Məlumatda deyilir ki, Berlin təmsililçisi transferlərə 98 milyon avro xərcləyib. Onlar "Milan"dan hücumçu Kşiştof Pyenteki 27 milyon, "Lion"dan Luka Tuzarı 25 milyon (mövsümün sununa qədər Fransada icarədə qalacaq), "Uotford"dan yarımmüdafiəçi Dodi Lukebakionu 20 milyon, "RB Leyptsiq"dən hücumçu Mateus Kunyanı 15 milyon, "Ştutqart"dan yarımmüdafiəçi Santyaqo Askasibarı 11 milyon avroya transfer edib. Bu oyunçuların orta yaş həddi 22-dir. Qış fasiləsi zamanı komandanı 8 oyunçu tərk edib. Onlardan 7-si icarəyə göndərilib, bir nəfərə isə azad agent statusu verilib. "Herta" bu keçidlərə görə heç nə qazanmayıb.





## Neftin qiyməti ucuzlaşıb

Dünya birjalarında neftin qiyməti ucuzlaşır. AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 0,13 dollar geriləyərək 58,16 dollar, Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 0,58 dollar ucuzlaşaraq 51,56 dollar təşkil edib.

## Balakəndə narkotacirlər saxlanılıb



Balakən Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakini, 27 yaşlı Anar Qarayev saxlanılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, onun yaşadığı evə baxış keçirilən zaman kiçik ölçülü sellofan torbada psixotrop maddə hesab edilən metamfetamin aşkarlanaraq götürülüb. A.Qarayevin ətrafında aparılan araşdırmalarla ona həmin psixotrop maddəni satan şəxslərin Gəncə şəhər sakinləri 29 yaşlı Natiq Cəfərov və 30 yaşlı Fuad Əmiraslanov olduqları müəyyənləşib. Onlar da şübhəli şəxs qismində saxlanılaraq polis şöbəsinə gətiriliblər. N.Cəfərovun və F.Əmiraslanovun metamfetamini 500 manata Anar Qarayevə satdıqları, ondan isə 60 manata heroin aldıqları məlum olub. Faktla bağlı saxlanılan şəxslər barəsində Balakən Rayon Polis Şöbəsində cinayət işi başlanılıb, istintaq aparılır.

## Viruslarla mübarizənin yeni yolu tapıldı

Alimlər viruslarla mübarizə üçün yeni bir yol tapıblar. SİA TASS agentliyinə istinadən xəbər verir ki, Cenevrə Universitetinin mütəxəssisləri, İngilis həmkarları ilə birlikdə, şəkər əsaslı dərmanların viruslara çarə olduğunu söyləyib. Alimlərin fikrincə, bu dərmanlar hətta yeni bir növ koronavirusun öhdəsindən də gələ bilərlər. Qeyd olunur ki, şəkər əsaslı dərmanlar qrip və Eboladan tutmuş yeni növ koronavirusa qədər bütün virus infeksiyaları ilə mübarizə aparmaqda həkimlərə kömək edə bilər. Cenevrə Universitetinin mütəxəssisləri, İngilis həmkarları ilə birlikdə "çoxsaylı virusları, xüsusən də tənəffüs və herpetik infeksiyaya səbəb olanları sadə təmas yolu ilə məhv etməyə imkan verən dəyişdirilmiş şəkər molekullarını aşkar etdiklərini bildiriblər. Elm adamları "Science Advances" jurnalında apardıqları araşdırmalar barədə məlumat veriblər.

## Ərdoğan sabah Ukraynaya işgüzar səfərə gedəcək



Fevralın 3-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Ukraynaya işgüzar səfərə gələcək. AZƏRTAC Ukrayna Prezidentinin mətbuat xidmətinə istinadla xəbər verir ki, Prezident Rəcəb Tayyib Ərdoğan rəsmi qarşılanma mərasimindən sonra Ukrayna-Türkiyə biznes forumunda iştirak edəcək. Forumda əsas müzakirə mövzularından biri Ukrayna ilə Türkiyə arasında Azad Ticarət Sazişinin imzalanması olacaq. Regional layihələrin həyata keçirilməsi, ticarət dövriyyəsinin artırılması və digər maraq doğuran məsələlərlə bağlı da müzakirələr aparılacaq.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600